

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 48 (24.430)

30 noyabr 2024-cü il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi





# COP29 – iqlim diplomatiyasında dönüş nöqtəsi

## *1 illik riyakarlığı iflasa uğradan 11 gün*




***BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) yüksək səviyyədə təşkili, bəşəriyyətin gələcəyi naminə nəticəyönümlü qərarların qəbul olunması ilə Azərbaycanın müstəqillik dönəmində ən böyük siyasi, diplomatik qələbələrindən biri kimi tarixə düşdü. Bəli, dünyanın hegemon dövlətlərinin, xüsusilə də inkişaf etməkdə olan kiçik ölkələrə riyakarlıq pəncərəsindən baxan ABŞ və Fransanın bir ildir, hərəkətə keçən boykot maşını pas tutdu, yerimədi. COP 1995-ci ildən bəri, 29 illik tarixində görünməyən, bənzəri olmayan qətiyyətli sədrliyin şahidi oldu. Prezident İlham Əliyev sessiyanın ilk günlərində keçirilən Liderlər və kiçik ada dövlətlərinin sammitlərində tarixi ədalətdən güc alan siyasi iradəsini, dönməz mövqeyini bir daha ortaya qoydu, qərəzli siyasi oyunlar, kolonial siyasət aparan Qərb dairələrini dünyanın gözü önündə kəskin şəkildə ifşa etdi. Bəşəriyyətin xilası naminə məzmun baxımından strateji və praktiki cəhətdən çox aktual tezislər irəli sürən Qalib liderin söylədiyi faktlar qarşısında BMT-nin baş katibi bu beynəlxalq təşkilatın nizamsızlığını, zəifliyini, ədalətsizlik qarşısında acizliyini daha dərindən dərk etdi...***

Səhifə ➡ 4

## Cənnətə dönən QARABAĞ



Səhifə ➡ 5

## Naxçıvanda doğum günü noyabr ayında olan şəhidlərin xatirəsi anılıb



Səhifə ➡ 7

## Bu torpağın sevdalı ruhu əsla solmayacaq



Səhifə ➡ 12

# Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci və 2-ci maddələrinə uyğun olaraq, Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə aşağıdakı yeni bələdiyyələr yaradılsın:

**56. Naxçıvan Muxtar Respublikası üzrə:**

**56.1. Naxçıvan şəhəri üzrə:**

56.1.1. Əliabad və Naxçıvan bələdiyyələrinin əhatə etdiyi Naxçıvan şəhərində və Əliabad qəsəbəsində Naxçıvan bələdiyyəsi;

56.1.2. Qaraçuq, Qaraxanbəyli və Tumbul bələdiyyələrinin əhatə etdiyi Bulqan, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Tumbul kəndlərində Qaraçuq bələdiyyəsi.

**56.2. Babək rayonu üzrə:**

56.2.1. Araz, Çeşməbasar, Güznüt və Nehrəm bələdiyyələrinin əhatə etdiyi Nehrəm qəsəbəsində və Araz, Çeşməbasar, Güznüt kəndlərində Nehrəm bələdiyyəsi;

56.2.2. Aşağı Buzqov, Cəhri, Gərməçataq, Payız və Yuxarı Buzqov bələdiyyələrinin əhatə etdiyi Cəhri qəsəbəsində və Aşağı Buzqov, Gərməçataq, Gülşənabad, Payız, Yuxarı Buzqov kəndlərində Cəhri bələdiyyəsi;

56.2.3. Babək, Hacıvar, Şəkərabad və Yarımca bələdiyyələrinin əhatə etdiyi Babək şəhərində və Badaşqan, Hacıvar, Şəkərabad, Yarımca kəndlərində Babək bələdiyyəsi;

56.2.4. Didivar, Nəzərabad, Şıxmahmud və Yuxarı Uzunoba bələdiyyələrinin əhatə etdiyi Aşağı Uzunoba, Didivar, Xəlilli, Nəzərabad, Şıxmahmud və Yuxarı Uzunoba kəndlərində Şıxmahmud bələdiyyəsi;

56.2.5. Göynük, Qahab, Naxışnərgiz və Nəhəcir bələdiyyələrinin əhatə etdiyi Göynük, Qahab, Naxışnərgiz, Nəcəfəlidizə və Nəhəcir kəndlərində Qahab bələdiyyəsi;

56.2.6. Kərimbəyli, Kültəpə, Sirab və Zeynəddin bələdiyyələrinin əhatə etdiyi Kərimbəyli, Kültəpə, Sirab və Zeynəddin kəndlərində Sirab bələdiyyəsi;

56.2.7. Məmmədrza Dizə, Məzrə və Vayxır bələdiyyələrinin əhatə etdiyi Xalxal, Kalbaoruc Dizə, Qaraqala, Məmmədrza Dizə, Məzrə və Vayxır kəndlərində Vayxır bələdiyyəsi.

**56.3. Culfa rayonu üzrə:**

56.3.1. Bənəniyar və Əbrəqunus bələdiyyələrinin əhatə etdiyi Bənəniyar və Əbrəqunus kəndlərində Bənəniyar bələdiyyəsi;

56.3.2. Camaldın, Ərəzin və Kırna bələdiyyələrinin əhatə etdiyi Camaldın, Ərəzin, Kırna və Qızılca kəndlərində Ərəzin bələdiyyəsi;

56.3.3. Culfa və Gülüstan bələdiyyələrinin əhatə etdiyi Culfa şəhərində və Gülüstan kəndində Culfa bələdiyyəsi;

56.3.4. Dizə, Şurud və Yaycı bələdiyyələrinin əhatə etdiyi Dizə, Gal, Şurud və Yaycı kəndlərində Yaycı bələdiyyəsi;

56.3.5. Əlincə, Göydərə və Saltaq bələdiyyələrinin əhatə etdiyi Əlincə, Göydərə, Xoşkeşin və Saltaq kəndlərində Saltaq bələdiyyəsi;

56.3.6. Ərəfsə, Xanəgah, Qazançı, Ləkətağ, Milax və Teyvaz bələdiyyələrinin əhatə etdiyi Boyəhməd, Ərəfsə, Xanəgah, Qazançı, Ləkətağ, Milax və Teyvaz kəndlərində Milax bələdiyyəsi.

**56.4. Kəngərli rayonu üzrə:**

56.4.1. Böyükdüz, Xok və Yeni Kərki bələdiyyələrinin əhatə etdiyi Böyükdüz, Xok və Yeni Kərki kəndlərində Xok bələdiyyəsi;

56.4.2. Çalxanqala, Xıncab və Qarabağlar bələdiyyələrinin əhatə etdiyi Çalxanqala, Xıncab, Qarabağlar və Təzəkənd kəndlərində Qarabağlar bələdiyyəsi;

56.4.3. Qabıllı, Qıvraq, Şahtaxtı və Yurdçu bələdiyyələrinin əhatə etdiyi Qıvraq qəsəbəsində və Qabıllı, Şahtaxtı, Yurdçu kəndlərində Qıvraq bələdiyyəsi.

**56.5. Ordubad rayonu üzrə:**

56.5.1. Aşağı Əndəmic, Gənzə, Nüsnüs və Yuxarı Əndəmic bələdiyyələrinin əhatə etdiyi Anabad, Aşağı Əndəmic, Gənzə, Nüsnüs və Yuxarı Əndəmic kəndlərində Nüsnüs bələdiyyəsi;

56.5.2. Aşağı Əylis, Dəstə və Yuxarı Əylis bələdiyyələrinin əhatə etdiyi Aşağı Əylis, Dəstə və Yuxarı Əylis kəndlərində Dəstə bələdiyyəsi;

56.5.3. Aza, Azadkənd, Gilançay və Sabirkənd bələdiyyələrinin əhatə etdiyi Aza, Azadkənd, Baş Dizə, Darkənd, Gilançay və Sabirkənd kəndlərində Sabirkənd bələdiyyəsi;

56.5.4. Biləv, Bist, Xurs, Nəsirvaz, Parağa, Parağaçay qəsəbə və Tivi bələdiyyələrinin əhatə etdiyi Ağdərə, Parağaçay qəsəbələrində və Behrud, Biləv, Bist, Əlahi, Xurs, Nəsirvaz, Nürgüt, Parağa, Tivi kəndlərində Biləv bələdiyyəsi;

56.5.5. Çənnəb, Düylün, Qoşadizə və Üstüpü bələdiyyələrinin əhatə etdiyi Çənnəb, Düylün, Kələntər Dizə, Qoşadizə, Məzrə və Üstüpü kəndlərində Düylün bələdiyyəsi;

56.5.6. Dırnıs, Kələki, Unus və Vələver bələdiyyələrinin əhatə etdiyi Anaqut, Başkənd, Dırnıs, Kələki, Qoruqlar, Pəzməri, Unus və Vələver kəndlərində Dırnıs bələdiyyəsi;

56.5.7. Xanağa və Vənənd bələdiyyələrinin əhatə etdiyi Ağrı, Dizə, Xanağa və Vənənd kəndlərində Vənənd bələdiyyəsi;

56.5.8. Ordubad və Şəhriyar bələdiyyələrinin əhatə etdiyi Ordubad şəhərində, Şəhriyar qəsəbəsində və Kilit, Kotam kəndlərində Ordubad bələdiyyəsi.

**56.6. Sədərək rayonu üzrə:**

56.6.1. Heydərabad, Qaraağac və Sədərək bələdiyyələrinin əhatə etdiyi Heydərabad qəsəbəsində və Qaraağac, Sədərək kəndlərində Sədərək bələdiyyəsi.

**56.7. Şahbuz rayonu üzrə:**

56.7.1. Ağbulaq, Aşağı Qışlaq, Biçənək, Gömür, Kolanı və Yuxarı Qışlaq bələdiyyələrinin əhatə etdiyi Ağbulaq, Aşağı Qışlaq, Biçənək, Gömür, Kolanı və Yuxarı Qışlaq kəndlərində Kolanı bələdiyyəsi;

56.7.2. Ayrınc, Güney Qışlaq, Kükü, Qızıl Qışlaq, Mahmudoba və Nursu bələdiyyələrinin əhatə etdiyi Ayrınc, Güney Qışlaq, Kükü, Qızıl Qışlaq, Mahmudoba və Nursu kəndlərində Ayrınc bələdiyyəsi;

56.7.3. Badamlı, Badamlı qəsəbə, Daylaqlı, Sələsüz, Şada, Şahbuz və Türkeş bələdiyyələrinin əhatə etdiyi Şahbuz şəhərində, Badamlı qəsəbəsində və Badamlı, Daylaqlı, Kiçikoba, Mərəlik, Sələsüz, Şada, Türkeş kəndlərində Şahbuz bələdiyyəsi;

56.7.4. Keçili, Külüs və Şahbuzkənd bələdiyyələrinin əhatə etdiyi Keçili, Külüs və Şahbuzkənd kəndlərində Külüs bələdiyyəsi.

**56.8. Şərur rayonu üzrə:**

56.8.1. Axaməd, Kərimbəyli, Kürçülü, Kürkənd və Maxta bələdiyyələrinin əhatə etdiyi Axaməd, Kərimbəyli, Kürçülü, Kürkənd, Qarabürc və Maxta kəndlərində Kürçülü bələdiyyəsi;

56.8.2. Axura, Aşağı Yaycı, Dizə, Gümüşlü, Havuş, Həmzəli, Oğlanqala və Yuxarı Yaycı bələdiyyələrinin əhatə etdiyi Axura, Aşağı Yaycı, Dizə, Gümüşlü, Havuş, Həmzəli, Oğlanqala, Şahbulaq və Yuxarı Yaycı kəndlərində Dizə bələdiyyəsi;

56.8.3. Alışar, Xələc, Qorçulu və Muğanlı bələdiyyələrinin əhatə etdiyi Alışar, Xələc, Qorçulu və Muğanlı kəndlərində Alışar bələdiyyəsi;

56.8.4. Arbatan, Çəmənli, Çərçiboğan, Çomaxtur və Dərvişlər bələdiyyələrinin əhatə etdiyi Arbatan, Arpaçay, Babəki, Çəmənli, Çərçiboğan, Çomaxtur və Dərvişlər kəndlərində Çərçiboğan bələdiyyəsi;

56.8.5. Aşağı Aralıq, Kosacan, Siyaqut və Yuxarı Aralıq bələdiyyələrinin əhatə etdiyi Aşağı Aralıq, Kosacan, Siyaqut və Yuxarı Aralıq kəndlərində Siyaqut bələdiyyəsi;

56.8.6. Aşağı Daşarx, Dərəkənd, Yeni Havuş və Yuxarı Daşarx bələdiyyələrinin əhatə etdiyi Aşağı Daşarx, Dərəkənd, Xətai, Oğuzkənd, Yeni Havuş və Yuxarı Daşarx kəndlərində Daşarx bələdiyyəsi;

56.8.7. Cəlilkənd, Düdəngə, Mahmudkənd və Zeyvə bələdiyyələrinin əhatə etdiyi Bəhruz Kəngərli, Cəlilkənd, Düdəngə, Günnüt, Mahmudkənd və Zeyvə kəndlərində Düdəngə bələdiyyəsi;

56.8.8. Danyeri, Püsyan və Tənənəm bələdiyyələrinin əhatə etdiyi Danyeri, Püsyan, Tənənəm və Təzəkənd kəndlərində Püsyan bələdiyyəsi;

56.8.9. Ələkli, Xanlıqlar və Vərməziyar bələdiyyələrinin əhatə etdiyi Ələkli, Xanlıqlar, Stansiya Daşarx və Vərməziyar kəndlərində Xanlıqlar bələdiyyəsi;

56.8.10. Ərəbyengicə, İbadulla, Qarahəsənli, Qışlaqabbas və Tumaslı bələdiyyələrinin əhatə etdiyi Diyadin, Ərəbyengicə, İbadulla, Qarahəsənli, Qışlaqabbas, Tumaslı və Vayxır kəndlərində Qışlaqabbas bələdiyyəsi;

56.8.11. Qarxun, Məmmədsabir, Muğancıq-Mehrab və Sərxanlı bələdiyyələrinin əhatə etdiyi Qarxun, Məmmədsabir, Muğancıq-Mehrab, Muğancıq-Müslüm və Sərxanlı kəndlərində Qarxun bələdiyyəsi;

56.8.12. Şəhriyar, Şərur və Yengicə bələdiyyələrinin əhatə etdiyi Şərur şəhərində və Şəhriyar, Yengicə kəndlərində Şərur bələdiyyəsi.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 oktyabr 2024-cü il*

# Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin funksiyalarının aidiyyəti üzrə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə ötürülməsinin təmin edilməsi ilə bağlı bir ay müddətində zəruri tədbirlər görsün;

1.2. bu Fərmanın 1.1-ci bəndi və 2-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. bu Fərmanın 1.1-ci bəndinə və 2-ci hissəsinə uyğun olaraq, müvafiq səlahiyyətlərin aidiyyəti dövlət orqanlarına (qurumlarına) ötürülməsi ilə əlaqədar dövlət əmlakı ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.2-ci və 6.3-cü bəndlərə "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 5-ci hissəsi üzrə:

2.2.1. 5.1-ci bənddən ", habelə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanı (qurumu)" sözləri çıxarılsın;

2.2.2. 5.8-ci bənddən ", Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanının (qurumunun) rəhbərindən" sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 noyabr 2024-cü il*

# A.S.Novruzovun Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azad Sevindik oğlu Novruzov Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 noyabr 2024-cü il*

# Xalqı düşünən



*“Azerbaijan International” (Azərbaycan Beynəlxalq) jurnalının 2001 (9.3) sayında baş redaktor Betti Bleyerin Azərbaycan Prezidenti Heydər Əliyevlə növbəti müsahibəsi ilk dəfə ingilis dilindən Azərbaycan dilinə tərcümə edilir. “Azerbaijan International”ın bu buraxılışı redaktor Betti Bleyerin “On il sonra” 5 iyul 2001-ci ildə Prezident Əliyevdən “Müstəqil Azərbaycanın qurulmasında Azərbaycan dilinin əhəmiyyəti” haqqında aldığı müsahibəyə həsr olunub. Müsahibədən bir neçə həftə əvvəl, Prezident Əliyev 2001-ci ilin avqustun 1-nə qədər kiril əlifbasından latın qrafikalı Azərbaycan əlifbasına məcburi keçidlə bağlı fərman imzalayıb.*

***Betti Bleyer:*** – Ən çox xarici mətbuat bu hadisəyə xüsusi əhəmiyyət verərək yazdı ki, latın qrafikasına keçidi Azərbaycanın özü, təxminən, 10 il əvvəl, 25 dekabr 1991-ci ildə qərara aldı və latın qrafikasının seçimi Azərbaycanın XX əsrdə (1923-1940) istifadə etdiyi latın qrafikalı Azərbaycan əlifbasına qayıtma idi. Azərbaycanda Prezident Əliyev bütün rəhbərliyi dövründə səylərini Azərbaycan dilinin dövlət dili kimi müəyyən edilməsi və işlədilməsini gücləndirməyə yönəldir.

Prezident Əliyev, həmçinin ötən 10 il ərzində Azərbaycanın sosialist sistemdən demokratiyaya keçid prosesi haqqında Qərbin, həqiqətən, səhv qavrayışına dair fikirlərini müzakirə edir.

Bundan əvvəl, 1993-cü ildə mən ilk dəfə sizinlə müsahibə aparanda əksər xarici jurnalistlərin iqtisadiyyat və siyasətlə əlaqəli soruşduğu ənənəvi sualları deyil, şəxsi həyatınızla bağlı sualları soruşdum. Bu illər ərzində, bizim birlikdə müxtəlif görüşlərimizdə, siz uşaqlıq illəriniz haqqında, böyüdüyünüz Naxçıvan haqqında, Memarlıq İnstitutunda tələbə kimi rus dilini öyrənməyiniz haqqında Moskvada Siyasi Büroda işləriniz haqqında və Sovet İttifaqı dağılandan sonra bu çox çətin keçid dövründə müstəqil ölkənin necə idarə edilməsi haqqında şəxsən danışmısınız.

Mən sizdən millətin formalaşması baxımından dilin rolu haqqında soruşmaq istərdim. Sizin çoxsaylı çıxışlarınızdan görünür ki, Azərbaycan dilinə bu dərəcədə dərin bir məhəbbətiniz var. Azərbaycanda bəzi dil mütəxəssisləri ilə danışanda mən başa düşürəm ki, sizin səyinizlə ana dilinin rəsmi dil kimi qəbul edilməsi keçmişdə 1960-1970-ci illərin axırlarına aid edilə bilər. Bu gün sizin kiril əlifbasından latın qrafikasına keçid məqsədilə 14 iyunda imzalanan 2001-ci ilin avqustun 1-nə qədər son müddət müəyyən edilmiş yeni fərmanınız mənim üçün maraqlıdır. Nəyə görə siz əlifba haqqında narahatsınız və kiril qrafikasının latın qrafikasına dəyişilməsi prosesini olduqca qısa müddətə müəyyən etməyi necə qərara aldınız?

***Heydər Əliyev:*** – Mənim bu yaxınlardakı fərmanım keçmiş onilliklər ərzində Azərbaycan dili haqqında mənim arzularımın və gördüyüm işlərin – Azərbaycan dili ilə bağlı bütün səylərimin məntiqi nəticəsidir. Siz mənim 1960-cı və 1970-ci illərdəki fəaliyyətimə toxundunuz. Hətta baxmayaraq ki, biz o zaman müstəqil deyildik və sovet dövründə yaşayırdıq, mən Azərbaycan dilinin rəsmi dövlət dili kimi işlədilməsini gücləndirmək uğrunda çalışırdım.

1977-ci ildə sovetlər yeni Konstitusiya qəbul etdi. Bir il sonra 15 respublikanın hər biri ayrıca sovet hökumətinin tərkibində öz konstitusiyalarını qəbul etdilər. O zaman mən Konstitusiyamızda Azərbaycan dilinin respublikanın dövlət dili olmasını təkid etdim (Əlbəttə, biz həmin statusu rus dili ilə bölməli olduq). Doğrudur, Azərbaycan dilinin dövlət dili adlandırılması Moskvada bəzi narahatlığa səbəb oldu.

Moskvada Konstitusiya Komissiyası var idi və biz müzakirələr üçün oraya gedərdik. Mən xatırlayıram ki, Ukraynanın rəhbəri Vladimir Şerbitski bizim nə etdiyimizi görəndə o dedi ki, bu o deməkdir ki, onlar konstitusiyalarında dövlət dili kimi Ukrayna dilini göstərməlidirlər.

Mən ondan soruşdum “Bunu həyata keçirməkdə sizə nə maneə olur? Ukraynanın 50 milyon əhalisi var, sizin üçün bunu etmək altı milyon əhalisi olan Azərbaycan kimi kiçik respublikadan daha da asandır”. Əlbəttə, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi göstərilməsinə bəzi maneələr oldu, ancaq əgər siz xalqımızın müstəqilliyimizdən sonra referendum yolu ilə qəbul etdiyi 1995-ci il Konstitusiyasına baxsanız, Azərbaycan dili yeganə rəsmi dövlət dili kimi göstərilir. Bunu mən etmişəm. Dil millətin formalaşmasında əsas amillərdən biridir. Əgər millətin öz dili yoxdursa, millətlərin tanınmasına problem olacaq.

Qədim zamanlardan bəri Azərbaycanın öz dili olub. Doğrudur, fasilələr olub. Məsələn, ərəblər gələn zaman onların dili burada istifadə olunmağa başladı, yaxud farslar gəldi, eyni şey baş verdi. Buna baxmayaraq, bizim öz dilimiz yaşadı.

Mən fərmanımda göstərmişəm ki, 500 il əvvəl Səfəvi sülaləsi (1501-1736) hakimiyyətə gələndə birinci padşah bütün İranı idarə edirdi. Onun adı Şah İsmayıl Xətai idi. (Yeri gəlmişkən, onun atasının adı da Heydər idi, Şeyx Heydər!) Xətai Azərbaycan dilinin bütün saray daxilində işlədilməsi üçün bir fərman verdi. Və o bunu etməyə çalışdı.

Ancaq sonralar Azərbaycan İranın təzyiqi nəticəsində müstəqilliyini itirdi və biz növbəti 200 il ərzində Rusiya imperiyasının bir hissəsi olduq. Beləliklə, hətta bizim öz dilimizi işlətməyimizə baxmayaraq, ana dilimiz rəsmi dövlət dili deyildir. Buna görə də mənim səyim nəticəsində sovet dövründə, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi göstərilməsi ilk dəfə idi.

İkincisi, siz nəzərə almalısınız ki, 1991-ci ildə Azərbaycan müstəqil respublika olanda, hətta mən prezident seçilməmişdən əvvəl Azərbaycan dili ana dili və dövlət dili kimi göstərildi və 1991-ci ilin dekabrında latın qrafikalı əlifba rəsmi əlifba elan edildi. Ancaq yenə də mən həmin dil qanununun Konstitusiyaya daxil edilməsini təmin edən yeganə şəxs idim.

Xalq Cəbhəsi ciddi səhv etdi. 1992-ci ilin oktyabr ayı ərəfəsində onlar parlamentdə yalnız 26 deputatın lehinə səs verməsi ilə dilimizin türk dili olması haqqında bir qanun qəbul etdilər. Bu, böyük bir xəyanət idi və Azərbaycanda ciddi narazılığa səbəb oldu.

Azərbaycanda yaşayan insanların əksəriyyəti mənşə etibarilə türklərdir. Bizim dilimiz türk dili ailəsinə aiddir. Ancaq onlar Azərbaycan dilini türk dili kimi göstərdiyi zaman bu Azərbaycanda səs-küyə səbəb oldu.

Doğrudur, hind-Avropa dil ailəsi, slavyan dil ailəsi və bir çox başqaları var, ancaq Azərbaycan dili bu gün dünyada mövcud olan digər 22 dil kimi kökləri türk dili ailəsinə mənsubdur. Ancaq türk dilinin özü təkcə Türkiyədə işlədilir.

Özbək, qazax, qırğız, türkmən, uyqur, tatar və başqa dillər türk dili köklərinə malikdir. Ona görə də bu dillərdə sözlər bir-birinə oxşardır. Bununla yanaşı, bizim hər birimizin öz dilimiz var: özbək dili, qazax dili, türkmən dili, tatar dili və digərləri. Bizim dilimiz Azərbaycan dilidir.

Doğrudur, türk dilləri ailəsinə daxil olan dillər içərisində Azərbaycan və türk dilləri bir-birinə daha çox oxşardır. Ona görə də biz bir-birimizi tamamilə yaxşı başa düşürük. Ancaq özbəklər Türkiyəyə gedəndə onlar rus dilində danışırlar və kimsə onların danışıqlarını rus dilindən türk dilinə tərcümə etməlidir. Yaxud hesab edin ki, biz altı ölkənin – türkdilli ölkələrin hər hansı biri ilə görüşlər keçirəndə yeganə olaraq mən və Türkiyə prezidenti öz ana dillərimizdə ünsiyyət qura bilirik. Mən Azərbaycan dilində danışıram və o, türk dilində danışır.

Ancaq Türkiyənin prezidenti Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın və ya Qırğızıstanın dövlət başçıları ilə görüşəndə onlar rus dilində ünsiyyət qurmalıdırlar. Türklər, sadəcə, o dilləri başa düşmür. Yaxud onların başa düşməsi çox çətin olur.

Türkiyədə Atatürkün rəhbərliyi altında 1920-ci illərin sonunda yenidən xalqın dil islahatı oldu. Ancaq o zaman onlar səhv etdilər. Mən əvvəl bu faktı türklərə demişəm. Türk dilinin islahat məsələsi Akop Dilacara (ermənisilli türk) tapşırıldı.

Bu gün türk xalqı bu haqda bilmir. Mən bir neçə dəfə türklərlə danışanda dedim ki, Akop onların dillərini mövcud vəziyyətə salıb, türklər bu haqda bilmədilər. Ancaq daha yaşlı nəsil bilir. Süleyman Dəmirəl (Türkiyənin keçmiş prezidenti, 1993-2000-ci illərdə hakimiyyətdə olub) bilir.

O zaman onların dilinə dəyişikliklər edildiyi üçün bizim dillərimizin arasında daha çox fərqlər vardı. Məsələn, mən danışanda Süleyman Dəmirəl mənim söylədiyim fikirləri 100 faiz başa düşür. Ancaq o danışanda mən onun fikirlərini tamamilə başa düşə bilmirəm. Ola bilsin ki, mən onun fikirlərinin 100 faizini deyil, təxminən, 95 faizini başa düşürəm. Bizim dillərimiz çox yaxındır, ancaq bu fakt dəlalət etmir ki, biz öz Azərbaycan dilimizi türk dili adlandırmalıyıq. Türkiyədə daha gənc nəsil Azərbaycan dilinin, təxminən, 70-80 faizini başa düşür.

Hər bir millət öz dilini sevməlidir. Əgər insanlar öz ölkələrini sevmirsə və onların öz dilləri yoxdursa, onlar heç vaxt güclü millət ola bilməzlər.

Əlavə edim ki, 10 il orta məktəbdə latın qrafikalı Azərbaycan əlifbası ilə təhsil aldım. Ancaq mən universitetə daxil olanda və sonrakı hərbi məktəb, Dövlət Təhlükəsizlik Komitəsinin məktəbi, hamısı rus dilində idilər.

Ruslar mənə deyir ki, mən rus dilini onların özlərindən daha yaxşı danışıram. Sovet dövründə ruslar Siyasi Büro üzvləri arasında Heydər Əliyevin rus dilində onlardan daha yaxşı danışdığını deyərdilər.

Mənim rus dilini çox yaxşı danışmağıma baxmayaraq, öz dilimi də unutmadım. Mən Moskvadan geri qayıdanda şayiələr gəzirdi ki, Heydər Əliyev öz dilini bilmir. Və ya, hətta Heydər Əliyev Azərbaycandilli deyil. Ancaq bu doğru deyildi; mən öz dilimi unutmamışdım.

***Betti Bleyer:*** – Siz nəyə görə kiril əlifbasının latın əlifbasına dəyişəndə son müddət qoydunuz?

***Heydər Əliyev:*** – On il əvvəl, 1991-ci ilin 25 dekabrında Azərbaycanda dövlət dilinin Azərbaycan dili olması haqqında bir qanun qəbul edildi. Həmin qanun bu fərmanı zəruri edən birinci şərtdir. Ancaq bu günə qədər o qanun, həqiqətən, həyata keçməyib.

Bunun səbəblərindən biri odur ki, burada, bizim ölkəmizdə mütəxəssislərin əksəriyyəti rus dilində danışırlar və onlar rus dilində yazmağa vərdiş ediblər. Beləliklə, nazirliklərin və digər idarələrin arasında sadə yazışma rus dilində aparılır. Hətta on il əvvəl qanunun qəbul edilməsinə baxmayaraq, onlar hələ də latın qrafikalı əlifbaya keçməyiblər. Ancaq bu nə vaxta qədər davam edər? On il kifayət deyilmi?

Mən bu fərmanı imzalayanda müxalifət mətbuatda şikayətləndi ki, Heydər Əliyev onları bankrot etməyə, qəzetlərini ləğv etməyə məcbur etmək istəyib. Ancaq onların özləri türklüyü sevirlər. Onlar tez-tez deyirlər ki, guya onlar Türkiyəni bizdən daha çox sevirlər. Və həqiqətdə onlar latın qrafikalı əlifbanı kiril əlifbasından üstün tuturlar.

Ancaq mən bu fərmanı verəndə onlar etiraz etdilər. Onlar dedilər ki, mən bu fərmanı əhalinin müxalifət qəzetlərini oxuya bilməməsi üçün vermişəm. Lakin təkcə onlar qəzet nəşr etmirlər. Bəs mənim mənsub olduğum partiya necədir? Mənim də rəsmi “Azərbaycan” qəzetim var. Əgər insanların qəzetləri oxumağın qarşısı alınırsa, bu göstərir ki, insanlar bizim qəzetlərimizi də oxuya bilməyəcək. Yaxud “Xalq qəzeti”ni və ya mənim siyasi partiyama (Yeni Azərbaycan Partiyası) mənsub olan bəzi digər qəzetləri götürün.

*(ardı var)*

**İngilis dilindən tərcümə etdi:**
**Süsənbər AĞAMALIYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

United Nations Climate Change | COP29 Baku Azerbaijan

# COP29 – iqlim diplomatiyasında dönüş nöqtəsi

## *1 illik riyakarlığı iflasa uğradan 11 gün*




*(əvvəli 1-ci səhifədə)*

COP29 noyabrın 11-dən 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 76 min iştirakçısı ilə qlobal iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə dair müzakirələrlə irəliləyərək kiçik zamanda böyük hədəfinə çatdı. COP29-un prezidenti Muxtar Babayevin tədbirin bağlanış plenar sessiyasında dediyi kimi, heç kim Bakıdan əsas məqsədimizlə bağlı yaxşı nəticə əldə etmədən getmək istəmir. Bəli, iqlim dəyişmələrinin əsas səbəbkarları, bəşəri fəlakətlərin baş aktorlarının cılız boykot kampaniyasından fərqli olaraq, atmosferin çirkləndirilməsində ən az payı olan Azərbaycan dünyanın gələcəyi naminə qollarını çırmalayaraq 11 gün ərzində misilsiz missiya yerinə yetirdi. BMT-nin Baş katibi Antonio Quterreş də yekun bəyanatında Bakıda əldə olunan razılaşmanın gələcək fəaliyyət üçün möhkəm əsas yaratdığını bildirdi: "COP29-da əldə olunan razılaşma qlobal istiləşməni 1,5°C-də saxlamaq məqsədini qorumaq üçün həyati əhəmiyyət daşıyır. Ölkələr vəzifənin öhdəsindən gəldi. Mən maliyyələşdirmə və yumşaldılmada daha iddialı nəticələrə ümid edirdim, lakin bu razılaşma gələcək fəaliyyət üçün möhkəm əsas verir".

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyalarının (COP) əsas hədəflərindən biri, təbii ki, iqlim dəyişmələrinə qarşı mübarizənin effektivliyinə nail olmaq üçün kifayət qədər maliyyə vəsaitinin ayrılmasını təmin etməkdir. Bu xüsusda onu vurğulamaq yerinə düşər ki, COP29-da iştirak edən ekspertlərdən birinin də açıqladığı kimi, dünyada bir il ərzində hərbi xərclərə 7,2 trilyon, moda və əyləncəyə 14,2 trilyon maliyyə vəsaiti xərclənir. Ancaq təəssüf doğuran haldır ki, COP28-də iqlim dəyişmələri ilə mübarizə tədbirlərinə 1 trilyon maliyyənin toplanması təşəbbüsünə baxmayaraq, həmin öhdəliyi üzərinə götürən dövlətlər tərəfindən bunun hələ 0,3 faizi də hasil olmayıb. Başqa sözlə, dünya ölkələri bəşəri dəyərləri qorumağa yox, onu məhv etməyə daha meyillidir, israrlıdır. Məhz bu baxımdan COP29-da qəbul olunan ən önəmli qərarlardan biri kimi, hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik – Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunması olduqca mühüm addımdır. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. İqlim dəyişmələrindən əziyyət çəkən kiçik ada dövlətlərinə böyük yardım göstərilməsinə xidmət edən bu addım, şübhəsiz, əvvəlki 100 milyard dollarlıq iqlim maliyyəsinin dəyərini bir neçə dəfə üstələməklə daha effektiv nəticələrə yol açacaq. Bu prosesin davamı kimi, əldə olunan ən böyük nailiyyətlərdən biri də 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılmasıdır. Gələn ildən fəaliyyətə başlaması nəzərdə tutulan fonda ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur. Bu da Prezident cənab İlham Əliyevin iqlim dəyişmələrinin fəsadlarının kiçik ada dövlətlərinə təsirlərinin yaratdığı çətinliklərin aradan qaldırılmasına dair COP29 qarşısında müəyyənləşdirdiyi prioritetlərin həllində olduqca uğurlu addımdır. Rəsmi Bakı əldə olunan bu iki mühüm razılaşma ilə həm də kiçik ada dövlətlərinə kolonial nəzərlə yanaşan, maddi sərvətlərini talamaqla ümumbəşəri problemlərə yol açan Qərb siyasi dairələrinin bir ildir, israrla apardığı boykot kampaniyasının iç üzünü, əsl mahiyyətini ifşa etdi. Başqa sözlə, COP29 başqalarının sərvəti hesabına varlanan ölkələrə artıq əlini daşın altına qoymaq vaxtının çoxdan çatdığını diktə etdi...

COP29-un ən böyük uğurlarından biri də, heç şübhəsiz, 2015-ci il dekabrın 12-də konsensusla qəbul edilərək, 2016-cı il aprelin 22-də imzalanan, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əsasən 2020-ci ildən atmosferdəki karbon dioksidin azaldılmasına dair tədbirləri tənzimləyən razılaşma – Paris sazişinin 6-cı maddəsinin, nəhayət ki, tam işlək vəziyyətə gətirilməsi oldu. Bu maddə üzrə qəbul olunan qərarlar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməklə atmosferə atılan tullantı miqdarının, emissiyaların azaldılmasına töhfə məqsədi daşıyır. Bu xüsusda onu vurğulamaq olar ki, Yer kürəsindən fərqli olaraq, atmosferdə sərhəd olmadığı üçün onun fəsadları, ümumilikdə, hər ölkəyə toxuna bilər. Yəni bu məsələdə də ədalət modeli yoxdur, nizam tərəzisi gözlənilmir, başqa sözlə, aza az, çoxa çox tendensiyası işləmir. Elə məhz bu baxımdan həmin maddənin qəbulu ilə 1,5 dərəcəni əlçatanlıqda saxlamaq üçün bütün ölkələrin birgəlik nümayiş etdirərək karbon bazarlarını açması olduqca mühüm nailiyyətdir. Bununla da bir ölkədə emissiyanın azaldılması sayəsində digər ölkədəki emissiyanın miqdarı da tarazlaşdırıla biləcək. COP29-un baş danışıqçısı Yalçın Rəfiyev də bu tarixi qərara aydınlıq gətirərək deyib: "Bu gün biz iqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birini çözmüşük. 6-cı maddəni başa düşmək çətindir, lakin onun təsiri bizim gündəlik həyatımızda aydın olacaq. Bu, kömür elektrik stansiyalarının dayandırılması, külək stansiyalarının tikintisi və meşələrin salınması deməkdir. Bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir". Bəli, bu həm də 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyən Azərbaycanın 2050-ci ilə kimi Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan iqtisadi rayonlarını "sıfır emissiya" zonasına çevirmək istəyinin reallaşması yönündə uğurlu addımıdır...

COP29-un yekununda verilən digər bir qərarla Qlobal Adaptasiya Hədəfi sənədi əsasında Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı və eyni zamanda COP sessiyaları çərçivəsində adaptasiya üzrə yüksəksəviyyəli Bakı dialoqu çağırılacaq ki, bu da Azərbaycanın COP tarixinə öz möhürünü vurduğunu göstərir. Eyni zamanda 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Uzunsürən danışıqlardan sonra bu sənəd üzrə razılaşmanın əldə olunması COP29-a uğurlu sədriliyin növbəti bariz ifadəsidir...

Ümumi fikir olaraq onu deyə bilərik ki, 1 illik boykot kampaniyasını 11 gün ərzində iflasa uğradan COP29-a uğurlu sədrlik etməklə Azərbaycan bu müddətdə ölkəmizə qarşı planlanan bütün təxribatların qarşısında mətinliklə dayandı, konfransı əsl məramından kənarlaşdırmağa, hədəfindən çaşdırmağa çalışan xarici və daxili qüvvələrin bədnam niyyətlərini ürəyində qoydu. Konfransın yekununda qəbul olunan qərarlar ümumbəşəri problemin həllinə yol açmaqla Azərbaycanın hələ uzun illər COP-un tarixindəki rolunun müstəsnalığını qoruyub saxlayacaq. Prezident cənab İlham Əliyevin noyabrın 24-də sosial şəbəkə hesablarında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəli paylaşımında dediyi kimi: ***"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək".***

**Nail ƏSGƏROV**



# Cənnətə dönən QARABAĞ

## "Yaşıl dünya naminə həmrəylik ili"nə ən gözəl töhfə

Cənnət deyəndə hər kəsin ağlına yaşıllıq, gül-çiçək gəlir öncə. Müqəddəs kitabımızda da yaşıllıqlar içərisində təsvir edilib cənnət. Cənnətin rəsmini çəkən məşhur rəssamların da rəsmlərində yaşıl meşələr görürük. Məhz yaşıl dünyanın ən gözəl rəngi və xilasedicisidir. Çünki yaşıllıqlar dünyanın ağciyərləridir. Qədim çağlardan xalqımız yüzillik ağacı da, körpə fidanı da bir övlad kimi qoruyub, qayğısına qalıb, qocaman ağacların yerinə gəlsin deyə yenilərini əkib, onların böyüyüb ərsəyə çatmasına qayğı ilə yanaşıb. Xalqımız ağacı yalnız yaşıllıq rəmzi deyil, həm də xalqın varlığının vacib şərti kimi qəbul edib. Onlar torpağın birliyi ilə ölkədə ağacların qorunması, onlara qulluq edilməsi arasında daxili əlaqənin olduğunu vurğulayıb, hətta bəzi ağacları müqəddəs sayıblar. Elə ona görə də biz illərlə cənnət Qarabağımıza həsrət qalanda təkcə torpaq həsrəti ilə yanmadı ürəyimiz, qatil düşmənin əlində Topxana meşəsinin tüstüsü ərşə qalxanda qəlbimiz parçalandı. Kəlbəcərdə, Laçında, Zəngilanda meşələr düşmən baltasına tuş gələndə ağacların səssiz harayı qulağımızı batırdı.

Otuz il erməni vandalları Qarabağın flora və faunasını məhv edərək bu bölgənin biomüxtəlifliyinə və təbii sərvətlərinə böyük ziyan vuranda, əkinəyararlı əraziləri davamlı olaraq yandıranda, qiymətli ağac növlərinin kökünü kəsəndə, faydalı qazıntıları amansızcasına talan edəndə, su mənbələrinə və torpağa zəhərli tullantıları atanda, su terroru törədəndə sanki dünya da gözsüz, qulaqsız olmuşdu. Təəssüf ki, bu biabırçılığa, qanunsuz əməllərə biganə yanaşırdı beynəlxalq təşkilatlar. Mənasız bəyanatlar isə kağız üzərində qalırdı.

### Ziyanın miqyası

Əvvəllər Qarabağ ərazisində meşə örtüyünün sahəsi 260 min hektardan çox olub, lakin torpaqlar azad edildikdən sonra işğal dövründə, təxminən, 54 min hektar meşə örtüyünün ermənilər tərəfindən məhv edildiyini gördük. Erməni mənbələrinin məlumatına görə, yalnız 2014-2018-ci illərdə Qarabağda bütün Ermənistana nisbətən 2,3 dəfə çox ağac kəsilib (175 300 kubmetr oduncaqla müqayisədə 404,800 kubmetr). Eldar şamı, qoz, palıd, xurma və sair daxil olmaqla qiymətli ağac növləri ciddi zərər görüb.

İllər sonra Qarabağı canımız bahasına geri alanda şəhid olduqlarımız bizi dəhşətə gətirdi. Cənab Prezidentin dediyi kimi sanki vəhşi qəbilə keçmişdi oralardan. Onlar mədəni irsimizə verdikləri ziyan kimi üstündə gəzdikləri torpağa da qənim kəsilmişdilər. Yazda taxıl əkib payızda biçir, sonra zəmiləri atəşə verirdilər. Dəfələrlə şahid olsaq da, bu kimi hadisələrə səsimizi heç kimə çatdıra bilmədik. Biz dünyadan ədalət gözləmək yerinə güc toplamağı seçdik. Çünki dünya güclünü haqlı bilən dünya idi.

### Əbədi qayıdışın simvolu

Döyüş meydanında və siyasi masada qələbə qazanıb torpağımızı geri aldığımız gündən keçən 4 il ərzində Müzəffər Sərkərdənin "Qarabağ cənnətə çevriləcək" ifadəsinin əməli işdə şahidi olduq. Qarabağa gedən Zəfər yolu dağların başına dolanıb, bağrı yarılıb çəkildi. Uca binalar inşa olundu, tarixi abidələr bərpa edildi, insanlar öz yurdlarına qayıtdılar. Qələbədən dərhal sonra Prezident cənab İlham Əliyevin göstərişi ilə ermənilərin Qarabağda ekoloji vəziyyətə vurduqları ziyan aradan qaldırılmağa başlanıldı. Böyük qələbənin birinci ildönümündə, Zəfər Günündə 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər. Bununla da Topxana meşəsinin bərpasına başlanıldı. Ölkə başçısının işğaldan azad olmuş bölgələrə hər səfəri təməlqoyma, açılış mərasimləri ilə bərabər ağacəkmə aksiyaları ilə də yadda qaldı. Torpağın bağrında açılan yaralar əkilən ağaclar, boy göstərən yaşıllıqlarla sarıldı. Qarabağın 2022-2026-cı illəri əhatə edən "Meşə fondunun bərpası" proqramı çərçivəsində, ümumilikdə, 30 min hektar meşə fondu sahəsinin bərpası üçün meşəbərpa, əkin və təbii bərpa işləri aparılması da qarşıya qoyulan məqsədlərdən biri oldu. Ərazilər minalardan təmizləndikcə həmin ərazilərdə yaşıllıqların salınması həyata keçirilməyə başlandı. Bu işdə təkcə dövlət orqanları yox, sakinlər də dövlətə dayaq oldu. Biz bir olub torpağımızı azad etdiyimiz kimi onu bərpa etmək üçün də yumruğa döndük. Hər əkdiyimiz ağac bir şəhid adı ilə bərabər torpağa köklændi. Şəhidlərlə adaş olan ağaclar, Eldarlar, Çinarlar...

Zəngilanda, Laçında, Şuşada öz ocağına qayıdan insanların hərəsi bir ağac əkdi bu yaralı torpağa. Bu ağaclar geri dönüşün işarəsi, torpağın əsl sahibi olduğumuzun sübutu oldu. Əbədi qayıdışın simvolu. Azad olunmuş torpağa əkilən ağaclarla yaşıd körpələr də göz açdı Zəngilanda, Şuşada.

İllər bir-birini əvəz etdikcə Qarabağda boy atıb, torpağa kök salan çinarın kölgəsində yüzlərlə körpə böyüyüb Vətən keşikçisi olacaq. Şəhid qanı ilə sulanan torpağın hər qarışında bitən ağaclar çiçək açıb bar verdikcə onların kölgəsində ürəyi Vətən sevgisi ilə dolu olan igidlər yetişəcək. Yaşıllığa bürünən Cıdır düzündə, çiçək açan Laçında, dağlar cənnəti Kəlbəcərdə azad Vətənin mavi səmasında pərvaz edən şəhid ruhları öz adlarını daşıyan barlı-bəhərli, ucaboylu, qamətli ağacların başı üzərindən boylanıb şad olacaq.

**Ramiyə ƏKBƏROVA**



## Səlahiyyətli nümayəndə Şahbuzda vətəndaşları qəbul edib







Noyabrın 23-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şahbuz rayonunda sakinlərlə görüşüb.

Görüşdən əvvəl səlahiyyətli nümayəndə və Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev Ümummilli Liderimiz Heydər Əliyevin Şahbuz şəhərində ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyublar.

Sonra Fuad Nəcəfli Şahbuz rayon sakinləri, o cümlədən şəhid ailələri və müharibə iştirakçıları ilə görüşüb, onlarla fərdi söhbət aparıb. Sakinlərin problemləri və təklifləri dinlənilib. Müraciətlərin hər birinin həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi qeyd olunub.

## Səlahiyyətli nümayəndə Sədərək və Kəngərlidə qəbullar keçirib





Noyabrın 25-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Sədərək və Kəngərli rayonlarında olub, sakinlərlə görüşüb.

Səlahiyyətli nümayəndə Ulu Öndər Heydər Əliyevin rayon mərkəzlərindəki abidələrini ziyarət edib, xatirəsini ehtiramla anıb.

Sonra rayon icra hakimiyyətlərində vətəndaş qəbulları keçirilib.

Fuad Nəcəfli sakinlər, o cümlədən şəhid ailələri və qazilərlə fərdi söhbət aparıb, onların müraciətləri və problemləri dinlənilib. Bütün müraciətlər protokollaşdırılaraq həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyi bildirilib.

## Səlahiyyətli nümayəndə Şərurda sakinlərlə görüş keçirib



Noyabrın 26-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur rayonunda olub, sakinlərlə görüşüb.

Səlahiyyətli nümayəndə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Şərur şəhərindəki abidəsini ziyarət edib.

Sonra rayon İcra Hakimiyyətində vətəndaş qəbulu keçirilib.

Səlahiyyətli nümayəndə sakinləri, o cümlədən şəhid ailələri və qaziləri fərdi qaydada qəbul edib. Görüş zamanı sakinlərin müraciətləri dinlənilib, onların üzləşdiyi problemlərin qısa müddətdə aidiyyəti dövlət qurumları ilə birlikdə araşdırılıb həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbir görüləcəyi bildirilib.

## Səlahiyyətli nümayəndə Babək rayonunda vətəndaşları qəbul edib



Noyabrın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Babək rayonunda vətəndaşları qəbul edib.

Görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Babək şəhərində ucalan abidəsi ziyarət edilib.

Sonra vətəndaşları, eləcə də şəhid ailəsi üzvləri və qaziləri qəbul edən səlahiyyətli nümayəndə onların hər biri ilə fərdi qaydada söhbət edib, problem və şikayətlərini dinləyib. Bildirilib ki, müraciətlərin hər biri protokollaşdırılaraq həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlər görüləcək.

## Səlahiyyətli nümayəndənin müavini "Yaşıl Azərbaycan naminə gənc səfirlər" layihəsinin iştirakçıları ilə görüşüb



Noyabrın 28-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli "Azərbaycan Uşaqları" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Uşaq Sığınacağı-Reinteqrasiya Mərkəzinin sakinləri olan uşaqlarla görüşüb.

"Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadə və "Yaşıl Azərbaycan naminə gənc səfirlər" layihəsinin proqram rəhbəri Fuad Dərgahlı layihə barədə məlumat veriblər. Bildirilib ki, layihənin əsas məqsədi gənclər arasında ekoloji bilik və bacarıqların təbliğini təşkil etmək və bunun üçün gənc səfirlər qrupunu hazırlamaqdır. Layihə ölkənin iki regionunda – Naxçıvan və Qarabağda reallaşdırılacaq. Bu məqsədlə heyət ilk olaraq Naxçıvan Muxtar Respublikasına səfər edib. Burada müxtəlif yaş qrupundan gənclərlə görüşlərin keçirilməsi, layihə yekunlaşandan sonra gələcək fəaliyyətlər üçün gənclərdən ibarət eko-qrupların formalaşdırılması nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli səmimi salamlayaraq bildirib ki, Naxçıvan blokada şəraitində yaşayır. Bu isə muxtar respublikanın paytaxtla inteqrasiyasını sürətləndirməyi, o cümlədən ölkəmizdə tətbiq olunan qabaqcıl təcrübənin Naxçıvanda yaşayan gənclərə aşılanmasını zəruri edir. Naxçıvan Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi bu məsələlərə xüsusi diqqət göstərir, gələcəyimiz olan gənclərin təklif və ideyalarının dəstəklənməsi, inkişafı məqsədilə münbit şərait yaradır. Bu işdə həm dövlət qurumlarının, həm də vətəndaş cəmiyyətlərinin üzərinə böyük vəzifələr düşür.

Layihənin işinə uğurlar arzulayan və icrası üçün dəstəyini ifadə edən Samir Seyidəhmədli gənclərə belə layihələrdə fəal iştirakı, ölkəmizin gələcəyi naminə yaradılan şəraitdən səmərəli istifadə edərək peşəkar mütəxəssis kimi formalaşmağı tövsiyə edib.

"Yaşıl Azərbaycan naminə gənc səfirlər" layihəsinin iştirakçısı olan uşaqlar gələcək planları və Naxçıvan səfəri ilə bağlı təəssüratlarından bəhs ediblər.

Görüşdə Naxçıvana növbəti səfərlər və burada həyata keçirilməsi nəzərdə tutulan digər layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Layihə iştirakçılarından Səbinə Əlizadə "Vətən" adlı əl işini səlahiyyətli nümayəndənin müavini Samir Seyidəhmədliyə hədiyyə edib.

Sonda xatirə fotosu çəkdirilib.

## Türkiyənin İğdır vilayətində Türkiyə və Azərbaycanın sərhəd bölgələri arasında iqtisadi əməkdaşlıq mövzusunda iclas keçirilib







AZƏRTAC-ın məlumatına görə, İğdır Ticarət və Sənaye Palatasında keçirilən müzakirələrdə iki qardaş ölkənin rəsmi qurumlarının nümayəndələri iştirak ediblər.

İclasda çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli vurğulayıb ki, Azərbaycan və Türkiyə arasındakı tarixi əlaqələr qarşılıqlı etimad, dostluq və qardaşlıq prinsiplərinə əsaslanır.

O bildirib ki, iki ölkə arasındakı əlaqələr, xüsusilə son dövrlərdə siyasi, iqtisadi və mədəni sahələrdə atılan mühüm addımlar nəticəsində daha da möhkəmlənir. "Biz dövlətlərimiz arasındakı əməkdaşlığın genişlənməsinə, o cümlədən sərhəd bölgələri səviyyəsində davamlı olaraq töhfə verməyə hazırıq", – deyə səlahiyyətli nümayəndənin müavini diqqətə çatdırıb.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nümayəndəsi Xəzər Başirov iki ölkə arasındakı iqtisadi əlaqələrin həcminin artmasına diqqət çəkib. "Bizim məqsədimiz Türkiyə ilə ticarət dövriyyəsinin həcmini maksimum dərəcədə genişləndirməkdir", – deyə o vurğulayıb.

İğdır valisi Ərcan Turan isə, öz növbəsində, iki dövlətin əlaqələrinin sarsılmaz olduğunu diqqətə çatdırıb: "Türkiyə və Azərbaycan strateji tərəfdaşlardır. Xalqlarımızın qardaşlığı uzaq keçmişə əsaslanır. Əlaqələrimizin potensialını maksimum dərəcədə üzə çıxarmaq üçün hər şeyi etmək lazımdır".

Vali Zəngəzur dəhlizinin açılmasını qarşılıqlı əlaqənin prioritetlərindən biri kimi qiymətləndirərək bu marşrutu "strateji əhəmiyyətli ticarət və logistika istiqaməti" adlandırıb. "Zəngəzur dəhlizi Türk dünyası ölkələrinin iqtisadi inteqrasiyasına əhəmiyyətli töhfə verəcək", – Ərcan Turan bildirib.

O həmçinin Türkiyədən Naxçıvana qaz kəmərinin tikintisinin və Qars-İğdır-Naxçıvan dəmir yolunun tezliklə açılmasının əhəmiyyətinə toxunub. "Bu təşəbbüslər sayəsində Türkiyə-Azərbaycan əməkdaşlığı yeni səviyyəyə çıxacaq", – deyə Ərcan Turan qeyd edib.

İğdır valisi Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsini Türk dünyasının tarixində dönüş nöqtəsi kimi xarakterizə edib: "Bu qələbə regionda uzunmüddətli sülh və sabitliyin təmin olunması üçün qapılar açdı".

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya isə Naxçıvanın hər dövrdə Türkiyə üçün xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Diplomat Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinin bütün region üçün yeni imkanlar açdığına əminliyini ifadə edib.

Daha sonra Türkiyə və Azərbaycan arasında ticarət əlaqələrinin mövcud vəziyyəti və inkişaf yolları üzrə fikir mübadiləsi aparılıb. Digər məsələlərlə yanaşı, ticarət prosedurlarının sadələşdirilməsi üzrə təşəbbüslər də müzakirə edilib.

**Ramin ABDULLAYEV**



# Naxçıvanda “İqlim dəyişikliyinin kənd təsərrüfatının inkişafına təsiri” mövzusunda konfrans keçirilib

Noyabrın 29-da Naxçıvanda “İqlim dəyişikliyinin kənd təsərrüfatının inkişafına təsiri” mövzusunda konfrans keçirilib.

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə güllər düzüblər.

“Naxçıvan Palas”da öz işinə başlayan konfransda əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli aktual mövzuya həsr olunmuş konfransın işinə uğurlar arzulayıb və konfransın iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Səlahiyyətli nümayəndənin müavini qeyd edib ki, dünyada baş verən qlobal istiləşmə, quraqlıqların artması aqrar sektora, nəticədə, ərzaq təhlükəsizliyi təminatına da mənfi təsir göstərir. Təbii ki, bu, Naxçıvan iqtisadiyyatına da təsirsiz ötüşmür. Çünki kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının əsasını təşkil edir. Bu səbəbdən də muxtar respublikada ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi prioritet məsələlər sırasındadır. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” Naxçıvanda bu sahədə atılacaq addımların təməlini təşkil edir. Sözügedən proqramda regionda ekoloji tarazlığın və bioloji müxtəlifliyin qorunması, yaşıllıqların mühafizəsi və artırılması əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirilib. Bu da muxtar respublikada iqlim dəyişikliklərinin ətraf mühit komponentlərinə təsirlərinin minimuma endirilməsi işinə mühüm töhfə verəcək.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini icra edən Xəyalə Dadaşova bildirib ki, məqsəd COP29-dan sonra iqlim dəyişikliyi problemlərinə qarşı görüləcək tədbirlərin birgə müzakirəsini aparmaqdır. Nazir müavini qeyd edib ki, iqlim dəyişikliyi kənd təsərrüfatında da məhsuldarlığa ciddi təsir göstərir. Bu təsirləri azaltmaq üçün praktik addımlar atılması zəruri xarakter daşıyır.

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov vurğulayıb ki, qlobal iqlim dəyişikliyi yağıntıların davamlı azalmasına və su qıtlığının artmasına səbəb olur. Bu da kənd təsərrüfatı sektoru üçün ciddi çətinliklər yaradır. Ölkəmizdə kənd təsərrüfatının inkişafı bir çox hallarda birbaşa su təchizatının yaxşılaşdırılmasından asılıdır. Bundan başqa, ölkə ərazisinin 15 faizi quraqlıq, 6 faizi isə səhralaşma təhlükəsi altındadır. Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında mövcud su, torpaq və iqlim ehtiyatlarından daha səmərəli istifadə, kənd təsərrüfatı sahəsinin iqlim dəyişikliyinə uyğunlaşdırılması, su təchizatının yaxşılaşdırılması, müasir su təchizatı texnologiyalarının səmərəli tətbiqi mühüm rol oynayır.



Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov COP29-a ev sahibliyi edən və bu mötəbər tədbiri uğurla başa vuran Azərbaycanın dünya ekosisteminin qorunması tədbirlərinə mühüm töhfələr verdiyini bildirib. Nazir müavini qeyd edib ki, bioloji müxtəliflik indiki və gələcək nəsillər üçün çox böyük dəyərə malik qlobal sərvətdir. Lakin növlər və ekosistemlər heç vaxt indiki qədər böyük təhlükə altında olmayıb. Ölkəmizdə son 30 ildə ortaillik havanın temperaturu əvvəlki dövrlə müqayisədə orta hesabla 0,9 dərəcə yüksəlib. Ərazinin əksər hissəsində yağıntının miqdarı orta hesabla 4 faiz azalıb. İqlim dəyişikliyi və bioloji müxtəlifliyin itirilməsi bir-biri ilə bağlı proseslərdir və birlikdə həll edilməlidir. Buna görə də “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində qlobal iqlim dəyişikliklərinə cavab verən yüksəkkeyfiyyətli təmiz ekoloji mühitin təmin olunması kimi mühüm vəzifə müəyyənləşdirilib. Ölkəmizdə ətraf mühitin mühafizəsini və təbii ehtiyatların səmərəli istifadəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin keyfiyyətcə yeni mərhələdə davam etdirilməsi prioritet istiqamətdir.

Konfransda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi rəhbərinin müavini Bariz Mehdiyev, Türkiyə Respublikası Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin Bitkiçilik Departamentinin müdiri İhsan Emiralioğlu və Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərovanın çıxışları dinlənilib. Çıxışlarda Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi və COP29-un bu il ölkəmizdə keçirilməsi təcrübə mübadiləsi aparmaqla gələcək təşəbbüslərə, dayanıqlı inkişaf sahəsində əməkdaşlıq səylərinin gücləndirilməsi və tərəfdaş münasibətlərin yaranmasına mühüm töhfə kimi dəyərləndirilib.

Konfransda COP29 və Naxçıvanda “yaşıl enerji” layihələrinə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Konfrans “Dayanıqlı kənd təsərrüfatı, qida və su təminatında iqlimin rolu” və “Elmi yanaşmalar və kadr potensialının artırılması” mövzularında panel müzakirələrlə öz işini davam etdirib.

# Naxçıvanda doğum günü noyabr ayında olan şəhidlərin xatirəsi anılıb



Noyabrın 28-də “Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə doğum günü noyabr ayında olan şəhidlərin anım tədbiri keçirilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanan doğum günü noyabr ayında olan şəhidlərlə bağlı videoçarx izlənilib. Tələbələr videoçarxda adları çəkilən 32 Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portretlərini səhnədə nümayiş etdiriblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Fərid Bağırzadə çıxış edərək bildirib ki, noyabr ayının Azərbaycan tarixində xüsusi rolu və yeri vardır. Dörd il bundan öncə Ali Baş Komandanın rəhbərliyi ilə başlanan Vətən müharibəsi məhz bu ayın 8-də böyük Qələbə ilə nəticələndi. Azərbaycan Ordusu öz missiyasını ləyaqətlə yerinə yetirdi, ərazi bütövlüyümüz təmin olundu. Ölkəmizdə yaranmış xalq-ordu-rəhbər birliyi nəticəsində tarixi ədalət bərqərar edildi. Ötən il sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri ilə dövlət suverenliyimiz də tam bərpa olundu. Azərbaycan Respublikası Prezidentinin bu il sentyabrın 19-da imzaladığı Sərəncama əsasən hər il sentyabrın 20-si ölkəmizdə “Dövlət Suverenliyi Günü” kimi qeyd ediləcək.

Qeyd olunub ki, bu gün dövlətimiz tərəfindən Vətən oğullarının bizə əmanət etdiyi azad torpaqlarda geniş quruculuq işləri reallaşdırılır. Soydaşlarımız doğma Şuşaya, Laçına, Zəngilana, Xocalıya qayıdır. Tarixi torpaqlarımızda təhsil ənənələri də bərpa olunur. Bu il ölkə başçısının iştirakı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışı oldu. Prezident universitetin müəllim və tələbələri ilə görüşündə pedaqoji kollektivin, gənclərin qarşısındakı gələcək prioritet hədəfləri açıqladı.

Vurğulanıb ki, dövlətimiz tərəfindən atılan hər yeni addım əvvəlkinin məntiqi davamıdır. Bunu Vətən müharibəsindən ötən dövrün ictimai-siyasi mənzərəsi də göstərir. Qazanılan bütün uğur və nailiyyətlərin arxasında Ali Baş Komandanın iradəsi, şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqları dayanır. Bu baxımdan xalqımız daim igid oğullarının xatirəsini ehtiramla anır. Naxçıvanda bu ilin əvvəlindən başlayaraq hər ayın sonunda doğum günü həmin ayda olan şəhidlərin xatirəsinə həsr olunan tədbirin təşkili də Vətən yolunda canından keçənlərə böyük hörmət və ehtiramın nümunəsidir.

Mərasimdə şəhid ailələri adından şəhid Əli Babayevin bacısı Məryəm Vəliyeva və şəhid Abbasəli Nəzərəliyevin qızı Şövkət Nəzərəliyeva qəhrəman oğulların şücaətlərindən söhbət açıb, anım tədbirinin təşkilinə görə minnətdarlıq ediblər.

Tədbirin bədii hissəsində Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti və “Altai” teatrının aktyorlarının birgə hazırladıqları “Biz qalib ölkənin vətəndaşıyıq” adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

# Ali Məclis sədrinin müavini, deputat Arzu Abdullayev seçicilərlə görüşüb



Noyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, 42 saylı Aşağı Əndəmic seçki dairəsinin deputatı Arzu Abdullayev Ordubad rayon Yuxarı Əylis kəndində Yuxarı Əylis və Aşağı Əylis kəndlərindən olan seçicilərlə görüşüb.

Görüş zamanı vətəndaşlarla fərdi qaydada söhbət aparılıb, onların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlər qanunamüvafiq qaydada həll olunması məqsədi ilə qeydiyyata alınaraq nəzarətə götürülüb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Hərbi Kollecində muxtariyyətimizin yüzillik yubileyi qeyd olunub



Azərbaycan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində muxtariyyətimizin yüzillik yubileyi ilə bağlı “100 illik şərəfli tarixi yol” adlı tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə kollecin kitabxanasında yubileyə həsr olunmuş “Naxçıvan – 100” adlı 100 nüsxədən ibarət kitab sərgisi ilə tanış olublar.

Tədbirdə Ümummilli Liderimiz Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il 30 dekabr tarixdə muxtar respublikanın 100 illik yubileyinin qeyd olunması ilə bağlı Sərəncam imzalayıb. Sərəncamın icrası ilə əlaqədar ötən dövrdə Naxçıvanda silsilə tədbirlər həyata keçirilib, muxtariyyət tarixinin araşdırılması istiqamətində kitablar, elmi nəşrlər, jurnallar çap edilib. Naxçıvan Hərbi Kollecində keçirilən “100 illik şərəfli tarixi yol” tədbiri də yubiley tədbirlərinin davamıdır.

Qeyd olunub ki, geostrateji ərazidə yerləşən, qədim türk yurdu Naxçıvan müxtəlif dövrlərdə gərgin siyasi mübarizələr meydanına çevrilsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf edib. Naxçıvanda dünyaya göz açan dahi şəxsiyyət Heydər Əliyev 1990-1993-cü illərdə məhz bu torpaqda cəsarətli addımlar ataraq milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə misilsiz işlər görüb. Naxçıvan 2020-ci ildə 44 günlük Vətən müharibəsinin qazanılmasında da xüsusi rol oynayıb, diyarın igid övladları şanlı Zəfər dastanında parlaq səhifələr yazıblar. 2024-cü ildə 100 illiyi geniş şəkildə qeyd olunan muxtar respublika ölkə başçısının diqqət və qayğısı sayəsində böyük inkişaf yolunda inamla irəliləyir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Emin Şıxəliyev, Üzeyir Məmmədov və “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova muxtar respublikanın qədim, zəngin tarixi, ecazkar təbiəti barədə ətraflı söhbət açıb, hərbi kollecin kursantlarına şərəfli peşələrində uğurlar arzulayıblar.

Sonra “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova kollecin kollektivinə hədiyyə olaraq “Come to Nakhchivan” fotoalbomunu Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynova təqdim edib.

Yubiley tədbiri “Ulu torpaq, Ulu Öndər” adlı filmin nümayişi ilə yekunlaşıb.






# COP29: qlobal güclərə qarşı növbəti diplomatik uğur

Tarixən ölkə başçılarının öz xalqlarının milli maraq və mənafeləri naminə apardığı diplomatik fəaliyyət, son nəticədə, dövlətlərinin beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsinə, dostlarının sayının artmasına səbəb olan çox mürəkkəb və hərtərəfli düşünülmüş münasibətlər sistemi olaraq nəzərdən keçirilir. Müstəqil Azərbaycan Respublikasının memarı Ulu Öndər Heydər Əliyevin mükəmməl dövlətçilik və diplomatik fəaliyyət təcrübəsini uğurla davam etdirən dövlət başçımız Prezident cənab İlham Əliyevin xarici siyasət kursunda sərgilədiyi dərin diplomatik bacarıqları sayəsində bu gün də ölkəmiz dünyanın diqqət mərkəzindədir.

Ötən əsrin 90-cı illərindən başlayaraq müstəqil inkişaf yolunu seçmiş Azərbaycanın bilavasitə əsas tərəfdaş kimi çıxış etdiyi enerji, İpək Yolu, Orta Dəhliz kimi iri iqtisadi layihələrdə, həmçinin 30 il ərzində işğal altında qalmış torpaqlarının düşməndən azad olunması, 44 günlük müharibə gedişində və ondan sonrakı dövrdə dövlətimizin diktəsi ilə davam edən siyasi diplomatiya, Qoşulmama Hərəkatına sədrliyi dövründəki diplomatiya və hazırda dünya gündəminə oturmuş iqlim diplomatiyasındakı uğurları ölkəmizin gücündən xəbər verən mühüm nailiyyətlərdəndir. Şübhəsiz, hər beynəlxalq hadisənin masa üzərindəki bir yekunu da vardır ki, burada da ölkələrin sahib olduğu iqtisadi-hərbi güclə yanaşı, onların dövlət başçılarının diplomatik bacarıqları da əsas rol oynayır. Bu mənada, ölkəmizin ev sahibliyi etdiyi qlobal iqlim məsələlərinə həsr olunmuş COP29 tədbiri öncəsi və keçirilmə günlərində dövlət başçısı Prezident cənab İlham Əliyevin diplomatik müstəvidə qazandığı uğurlar dövlətimizin gücünü dünyaya bir daha nümayiş etdirdi. Xüsusən iqlim məsələsi kimi hər kəsi narahat edən dünyəvi məsələləri şəxsi kolonialist maraqlarından aşağı tutan, Azərbaycanın müstəqil siyasətindən və torpaqlarını işğaldan azad etməsindən narahat olan Fransa, Almaniya və Niderland kimi dövlətlərin əksinə olaraq iqlim böhranından əziyyət çəkən kiçik ada ölkələrinin səsini hər yerə duyuran dövlət başçımızın, bu mənada, qlobal güclərə qarşı diplomatik sahədə qazandığı uğurlar dünyada əks-səda yaratmışdır.

Qlobal iqlim böhranı, yəni sənayeləşmiş ölkələrin havaya atdıqları karbon və metan tullantıları səbəbindən yaranan istixana effekti nəticəsində planet havasının normadan artıq istiləşməsi kimi ciddi məsələ hazırda dünyanın qarşısında duran bir nömrəli problem olub, vaxtında həll olunmayacağı təqdirdə ciddi kataklizmlər və eqzistensial təhlükələr yaradacağı elmi və praktiki cəhətdən sübut olunmuşdur. Şübhəsiz, hazırda 193 üzvü olan BMT çərçivəsində 1995-ci ildən başlayan və müxtəlif dünya ölkələrində keçirilən Tərəflər Konfransı sessiyalarının kağız üzərindəki əsas hədəfi karbon emissiyalarının azaldılması və yeni texnologiyaların tətbiqi ilə bunun əvəz edilməsi, eyni zamanda iqlim dəyişikliyinin fəsadlarından əziyyət çəkən kiçik ada və sahilyanı ölkələrin hökumətlərinə maliyyə yardımının göstərilməsi olmuşdur. Elə yüksək təşkilatçılığı ilə yadda qalmış Konfransın Bakı Sammiti (COP29) də əvvəlki illərdə olduğu kimi qlobal güclər qarşısında səbəb olduqları bu problemin həllində əməli işlər görülməsi üçün dünyanın bir araya gəlməsi məqsədi daşımışdır. Qlobal güclərin isə hazırda öz ambisiyalarını gerçəkləşdirmək üçün Ukraynada uzaqvuran raketlərini sınaqdan keçirməsi ilə məşğul olduğu bir dövrdə, karbonsuz sənaye və yaşıl dünya naminə bir araya gələn zəif və inkişaf etməkdə olan ölkələrin səylərinə dəstək verən builki COP sədri Azərbaycan iqlim diplomatiyası tarixində toplanmış ənənəvi təcrübəni yaxşı bildiyi üçün bu dəfə oyunpozanların bəhanələrinə keçid vermədi. Bəhanələr isə həmişəki kimi çox idi. Azərbaycanı az qala günəşli günlərin sayına görə də günahlandırmaq istəyən sənayeləşmiş dövlətlərin iç üzü açıldıqca iqlim böhranından daha çox əziyyət çəkən zəif ölkələr üçün son çarə yenə də dövlət başçımızın nümayiş etdirdiyi kifayət qədər sərt və sərrast çıxışları oldu. Özlərinin riyakar jurnalistikası ilə silahlanmış qlobal Qərbin başbilənlərinin üzünə layiq olduqlarını birbaşa deyən dövlət başçımız bununla da, dünya siyasətində yeni bir fəsil açdı. Bundan sonra dünyanı “cəngəllik” kimi görüb, özlərini isə “cəngəlliklər kralı” adlandıranlara qarşı yazılarda dövlət başçımızın Bakıdakı çıxışından bol-bol iqtibaslar gətiriləcək.

Hazırda dünya ciddi qarşıdurmalara səhnə olur və kəskin imperialist və ekspansionist maraqlar ucbatından iqlim böhranı kimi həyati vacib problemlər çox vaxt unudulur. İqlim isə heç kimi bağışlamır. Bu mənada, keçmiş SSRİ məkanında ilk dəfə olaraq Azərbaycanda keçirilən COP29 Sammiti coğrafi koordinantları ilə dünyanın mərkəzi olan ölkəmizi heç zaman bir-birləri ilə ulduzları barışmayan qlobal yarımkürələr və qitələr arasında barışdırıcı mövqeyə qovuşdurur. Nəticədə, qlobal karbon emissiyasının 80 faizinə səbəb olan G20 dövlətləri nəyin bahasına olursa-olsun, qlobal temperatur artımının normada saxlanılmasının elə onların özləri üçün də vacib olduğunu bir daha qəbul edirlər. Belə ki, iqlim dəyişikliyinin fəsadları sərhəd tanımadığından bu dövlətlərin hamısının gələcək taleyinin indiki Hindistandan daha da ağır olmayacağına kimsə zəmanət verə bilməz. Buna görə də, yaşıl keçid üçün elə bir ciddi problemləri olmayan və bu istiqamətdə artıq güclü nailiyyətlər qazanmış rəsmi Bakı bu qlobal güclərə bir daha izah etdi ki, bu gün iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizəyə və yaşıl keçid üçün ayıra bilmədikləri və ya ayırmaq istəmədikləri 1 trilyon dolların yerinə sabah 10 qat artıq ödəməli olacaqlar!

Ölkəmizin iqtisadi-siyasi həyatına təsiri, dövlətimizin təşkilatçılıq gücünün və xalqımızın qonaqpərvərliyinin tanıdılması, eləcə də medianın iqlim jurnalistikası və sadə vətəndaşların iqlim həssaslığı üzrə maarifləndirilməsi baxımından olduqca əhəmiyyətli olmuş COP29 da Azərbaycanın qələbəsi ilə başa çatmış, ölkəmizə gəlmiş 196 dövlətin 76 min nəfər təmsilçisi iki həftə ərzində aparılmış müzakirələrdən sonra 300 milyardlıq maliyyə hədəfinə çatmaqla gələn il G20 üzvü olan Braziliyada keçiriləcək COP30 üçün ümidli nəticələr yaratdı. Beləliklə, bundan sonra Bakının adı bütün qlobal iqlim məzmunlu diskussiyaların rezyumesinə daxil edildi.

**✍ Əli CABBAROV**

# Qlobal missiya: COP29-un uğurları

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən il dekabrın 15-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə təşkili ilə əlaqədar keçirilən müşavirədə demişdi: ***“Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq”.*** Belə də oldu. 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının iştirak etdiyi COP29-un yüksək səviyyədə təşkili, burada qəbul edilən qərarların qlobal əhəmiyyəti, bir çox uğurları ilə yadda qaldı. Ölkə başçısı noyabrın 24-də sosial şəbəkə hesablarında “COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!” sərlövhəli paylaşımında qeyd etdi: ***“Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu. Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək”.***

Ötən ilin dekabrında Azərbaycana hörmət əlaməti olaraq onun beynəlxalq arenada, siyasi, mədəni, enerji, ticarət, nəqliyyat sahələrində oynadığı rol nəzərə alınaraq, eləcə də qısa müddətdə 30 illik işğala son qoyub tarixi Qələbə qazanaraq öz gücünü bütün dünyada bir daha təsdiq edən ölkəmiz, təxminən, 200 ölkənin yekdil qərarı ilə COP29-a ev sahibliyi etmək şərəfinə nail oldu. Və nəhayət, bu il noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirildi. Ölkəmiz bu qlobal missiyanı dünyanın gələcəyi üçün mühüm əhəmiyyət daşıyan nəticələrlə, uğurla başa vurdu. COP29-un uğur və nəticələri nədən ibarət idi?

Əvvəlcə Azərbaycana səfər edən qonaqlar ölkəmizi daha yaxından tanımaq imkanı əldə etdilər. Ölkəmizin yaşıl gündəliyi bir daha dünyanın diqqətinə çatdırıldı, “Yaşıl dünya naminə həmrəylik” şüarı altında ekoloji problemlərdən əziyyət çəkən ölkələr üçün çağırışlar edildi. Ölkəmiz COP29-a ev sahibi seçildikdən sonra başlanan və tədbir keçirilən ərəfədə daha da şiddətlənən Qərbin COP29-u boykot, böhtan və qarayaxma kampaniyası puça çıxdı. COP29 sədrliyinin əsas prioritetlərindən biri olan Paris Sazişinin 6-cı maddəsi tam təsdiq olundu. İqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarlarının təmin edilməsini nəzərdə tutan altıncı maddənin təsdiqi ilə ölkələrin milli iqlim planlarının (NDCs) həyata keçirilməsi xərcləri ildə 250 milyard dollara qədər azalacağı gözlənilir.

Həmçinin 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınmasını əhatə edir ki, bütün bunlar üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsində mühüm rol oynayacaq. Azərbaycanın COP29 sədrliyinin növbəti uğuru inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən tarixi qərarın qəbul edilməsi idi. İtki və Zərər Fondu (Loss and Damage Fund) iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək məqsədi daşıyır. COP29 çərçivəsində isə İtki və Zərər Fondu ilə bağlı imzalanan bir sıra mühüm sazişlər nəticəsində hazırda fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği 730 milyon ABŞ dollarından artıqdır. Həmçinin Paris Sazişinin 13-cü maddəsinə uyğun olaraq İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması, qabiliyyət quruculuğu sahəsində inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstəyin göstərilməsinə dair qərarın qəbulu digər uğurlardandır.

Həmin qərarda COP29 sədrliyinin iqlim şəffaflığı sahəsində həyata keçirdiyi tədbirlər, o cümlədən iqlim şəffaflığına həsr olunmuş bir sıra forumlar və qabiliyyət quruculuğu təlimlərinin təşkili, COP29-un iqlim şəffaflığı sahəsində əsas irsi olan Bakı Qlobal İqlim Şəffaflığı Platformasının yaradılması öz əksini tapıb. Əldə edilən nailiyyətlərdən biri də inkişaf etməkdə olan ölkələri könüllülük prinsipi əsasında iqlim maliyyəsinə töhfə verməyə çağıran, COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfinin qəbulu oldu. Sənədə əsasən inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək ən azı 300 milyard ABŞ dollarına çatdırılması təmin ediləcək.

Nəticədə, COP29 ölkəmizin böyük uğurlarından biri kimi tarixə yazıldı. COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan edilməsi barədə qətnamənin qəbulu isə onun yüksək səviyyədə keçirildiyinin bariz göstəricilərindən biridir.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

COP29
Baku
Azerbaijan



# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Culfa şəhərindən olan şəhidimiz Yaqub Nəcəfovun anası Xuraman Zeynallının, Naxçıvan şəhərindən olan şəhidimiz İbrahim Qasımovun anası Maral Qasımovanın və Sədərək rayonundan olan şəhidimiz Məmmədhəsən Sadıqlının anası Səadət Sadiqovanın övladları haqqında xatirələri yer alıb.*

## Yaqub Məhəmməd oğlu Nəcəfov

(07.07.2000-09.11.2020)

## Yaqub sanki şəhidliyə tələsirdi






Yaqub haqqında danışmaq mənim üçün çox çətindir. Ailədə 3 qardaşdırlar. Hər üçü Vətənini sevən, Vətəni uğrunda canından keçməyə hazır olan övladlardır. Hər üçü Vətən müharibəsində iştirak edib. Yaqub isə şəhidliyə ucalıb.

Yaqub sanki şəhidliyə tələsirdi. Elə hey deyirdi ki, vaxtım azdır. Sonuncu dəfə ad gününü qeyd edirdik. Gətirdiyi tortun üzərində heç nə yox idi. Dedim, Yaqub, niyə tortun üzərinə heç nə yazdırmamısan? Cavab vermədi. Bircə onu dedi ki, ana, vaxtım azdır, mən tələsirəm. Hələ də dediyi "Vaxtım azdır, mən tələsirəm" sözləri qulağımdadır. İndi başa düşürəm ki, Yaqub niyə elə deyirmiş. Hər dəfə evə oynaya-oynaya gəlirdi. Deyirdi ki, ana, mən səni krallar kimi yaşadacağam.

Həyətimizdə tikinti gedirdi. Yaqub gələndə həmin hissəyə çoxlu torpaq tökmüşdülər. Tezdən saat 5-də durub orada işləyirdi. Atasına deyirdim, Yaquba de gəlsin, dincəlsin. Ancaq o yorulmadan çalışırdı. Deyirdi, burada bulaq tikək. Həqiqətən də, biz onun dediyi kimi etdik. Yaqub zəif cüssəli olmasına baxmayaraq, hər kəs onu qoçaq, işini sevən biri kimi xatırlayır.



Yaqub əsgərlərinə "Canavarlarım", – deyə müraciət edərdi. Deyirdik, Yaqub, hər kəs "Pələng" deyir, bəs sən niyə elə deyirsən. Deyirdi, ana, pələngi əhliləşdirə bilirlər, o, bir tikə ətə boyun əyir. Amma canavarı əhliləşdirmək mümkün deyil. Canavar heç vaxt boyun əyməz. İnadından dönməz. Ona görə əsgərlərimə "canavar" deyirəm.

Yaqub hər gün eyni saatda mənə zəng vururdu. Elə bil ki, saatı, dəqiqəni bilirdi. Mən məktəbdən evə çatan kimi zəng gəlirdi. Deyirdi ki, ana, mən rahat yerdəyəm. Sən narahat olma. Demirdi Füzulidəyəm. Deyirdi ki, çay qırağındayam. Hər şey yaxşıdır. Mən Şuşaya gedəndə əsgərlərindən biri həmin çay qırağını mənə göstərdi. Oğlumun dayandığı yeri. Mənim üçün müqəddəsliyə çevrilən yeri...

Fəxr edirəm ki, övladlarım torpaqlarımızın işğaldan azad olunmasında qəhrəmanlıq göstərib. Vətən sağ olsun!

## İbrahim Malikəjdər oğlu Qasımov

(29.01.1992-19.09.2023)

## Dedi, ana, biz Vətəni qorumağa gedirik





İbrahim çox igid, mərd, qorxmaz uşaq olub. Orta təhsilini 16 nömrəli tam orta məktəbdə alıb. Çox yaxşı oxuyurdu. Müəllimləri hər zaman İbrahimin seçilən uşaq olduğunu qürurla deyirlər.

Oğlum balaca vaxtından Vətənə bağlı uşaq olub. Müharibəyə gedəndə dedim ki, özünü qoru. Dedi, ana, biz Vətəni qorumağa gedirik. Özümüzü müharibədən sonra qoruyarıq. Vətəni mən qorumayım, o qorumasın. Bəs Vətənimizi kim qorusun?

Müharibə başlayanda ailəliklə Naftalan şəhərində idik. Oğlumun ad gününü qeyd edirdik. Həmin vaxt zəng gəldi İbrahimin telefonuna. İbrahim övladını, məni və yoldaşını evdə qoyub döyüşə yollandı. Əsgərləri İbrahim haqqında çox qürurla danışırlar. Deyirlər, bizim böyük qardaşımız idi. O, bir gün olsun belə bizimlə komandir kimi davranmadı.



İbrahim universitetdə oxuyurdu. Ancaq universitet bağlandığı üçün təhsili yarımçıq qaldı. Sonra zabitlik kursunda təhsilini davam etdirdi. İbrahim müharibənin 44 günündə də iştirak etdi. Amma balamın qismətində deyilmiş həmin vaxt şəhid olmaq. 23 saat 43 dəqiqəyə balamı Vətənə qurban verdik. Həmin gün evə zəng vurdu. Telefonu yoldaşı açdı. Dedi, tez anama ver. Telefonu aldım. Hər dəfə ana deyəndə mən də ona can deyirdim. İbrahim tez deyirdi, can anam... Bu dəfə can deyəndə heç nə demədi. Sanki tələsirdi. Tez-tez danışırdı. Dedi, bu gecə növbədə qalmışam, yuxusuzam. Bizi Bərdəyə aparırlar. Mən heç nə başa düşmədim. Heç soruşmadım ki, bəs növbədən sonra səni niyə Bərdəyə aparırlar. Çox bərk uşaq idi. Müharibədən bir kəlmə də olsun demədi. O gedən getdi. Yoldaşları deyir ki, indi də qəlbimizdə yaşayır. Heç vaxt onu unutmayacağıq.

İndi İbrahimin körpə balası ilə nəfəs alıram. Yaxşı ki, balası var. Vətən sağ olsun!

## Məmmədhəsən Meydan oğlu Sadıqlı

(21.02.1992-27.10.2020)

## Məmmədhəsən istəyirdi ki, hər getdiyi yerdə bayraq olsun







Məmmədhəsən haqqında çox danışmaq olar. Oğlum ata-anasına bağlı bir övlad idi. Yaqin ki, Vətən sevgisi bu bağlılıqdan irəli gəlirmiş. Çox qoçaq idi. İdmana hədsiz maraq göstərirdi. Bütün yarışlardan qalib çıxardı. O idman yarışı yox idi ki, oradan təltifsiz qayıtsın.

Ən böyük arzusu idi hərbçi olmaq. Bunun üçün ciddi çalışırdı. Arzusuna çatdı, hərbi liseyə qəbul oldu. Orada da çox yaxşı oxuyurdu. Müəllimləri Məmmədhəsəndən çox razı idilər. Həm savadı, həm tərbiyəsi, həm də idmana olan həvəsi ilə fərqlənirdi.

Hərbi liseyi uğurla bitirdi. Sonra AHM-ə daxil oldu. Məmmədhəsən orada da fərqlənirdi. Komandirləri razılıq edirdilər. Deyirdilər ki, belə kursantlarımızla fəxr edirik.

Məmmədhəsən Günnüt əməliyyatında yaxından iştirak etdi. Bayrağa çox bağlı idi. İstəyirdi ki, hər getdiyi yerdə bayraq olsun. Onu yüksəklərdə dalğalandırsın. Günnütdəki şücaətinə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif olunub.

Balamın Uğur adında bir övladı var. Hər dəfə Allaha şükür edirəm ki, Məmmədhəsənin nişanəsi qalıb. Ona baxdıqca sanki balamı yanımda hiss edirəm. Bilirəm, biz analar üçün bu dərd çəkilməzdir. Amma qürurluyuq. Çəkilməzdir, ona görə ki, balanın imtahanı çətin olur. Bala dərdi ağırdır. Qürurluyam, ona görə ki, balam qəhrəmandır. Öz millətini, dövlətini, xalqını hər şeydən üstün bildi. Ali Baş Komandanın əmri ilə getdi. Torpaqlarımızı düşmən tapdağından azad etdi.

İndi o torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bütün dünya bizə həsəd aparır. Prezidentimizə qibtə edirlər. Çünki onun siyasəti və bizim balalarımızın sədaqəti torpaqlarımızı azad etdi.

Zaman hər şeyin dərmanıdır. Yüzlərlə, minlərlə Məmmədhəsənlər, Eminlər, Raqiblər doğulacaq. Bu igid oğullar var olduqları müddətcə bizim bayrağımız yüksəklərdə dalğalanacaq.Var olsun Prezidentimiz! Yaşasın Azərbaycan xalqı! Vətən sağ olsun!

# Xatirələrdən tarixə boylandıq...



Deyirlər ki, həyatda heç nə təsadüfən, öz-özlüyündən yaranmır. Bu fikri əvəzsiz şəxsiyyətlər barədə də demək olar. Hər bir xalqın tarixində kökünə qırılmaz tellərlə bağlanan əsl vətəndaşlar öz təəssübkeşliyi, sədaqətliliyi ilə tarixin davamçısı kimi rol oynayıb, adlarını tarix səhifələrinə həkk edirlər.

Azərbaycan tarixinin təlatümlü dövrlərində, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının qaranlıq günlərində əsl ziyalı mövqeyində dayanan Əli Əliyevi 120 illik yubileyi ərəfəsində “Şərq qapısı” qəzeti olaraq qələmimizlə anmaq istədik. Xatirələrindən sinədəftər kimi söz açan ziyalı auditoriyası onun keçdiyi şərəfli həyat yolundan ağızdolusu danışır, onu özlərinə örnək sayırlar. 1995-ci ildə Xalq şairi Məmməd Araz tədqiqatçı-alim, elm və maarif fədaisi, görkəmli dövlət xadimi, Əməkdar müəllim Əli Əliyev haqqında “Naxçıvanın qeyrət təcəssümü olan bir alim kimi qranit qayadan heykəli yonulmağa layiqdir!” fikirləri ilə münasibətini bildirmişdir. Təbii ki, belə qiymət düşünülmədən verilməmişdir. Bir çox ziyalılarımız Əli Əliyev haqqında xoş münasibətlərini bildirib, onun əsl vətəndaş, ziyalı mövqeyini yüksək qiymətləndiriblər. Əslində, bu qeydlərin yazıya alınmasına da ziyalılarımızın dilindən eşitdiyimiz dəyərli fikirlər səbəb oldu. Əli Əliyev haqqında eşitdiklərim günlərlə məni öz təsirində saxladı, Məmməd Arazın dediyi həmin o qranit heykəl gözüm önündə ucaldı. Və vaxtilə Ulu Öndərin dediyi sözləri xatırladım: ***“Xatirimdədir, 1990-cı ildə Moskvadan Azərbaycana dönüb Naxçıvana gedərkən mən orada, birinci növbədə, öz müəllimlərimi axtarmağa başladım. Allaha şükür olsun ki, Əli Əliyev mənə tarix dərsi deyibdir”.***



**Ulu Öndər Heydər ƏLİYEV:**

**“Xatirimdədir, 1990-cı ildə Moskvadan Azərbaycana dönüb Naxçıvana gedərkən mən orada, birinci növbədə, öz müəllimlərimi axtarmağa başladım. Allaha şükür olsun ki, Əli Əliyev mənə tarix dərsi deyibdir”.**

Əli Əliyevi daha da yaxından tanımaq üçün ailə üzvləri ilə görüşüb, xatirələrindən söz açmalarını xahiş etdik. “Şərq qapısı” qəzetinin müxbirinin istəyinə onlar müsbət yanaşdılar. Axı Əli Əliyevin 50 il doğma qəzetdə bu qədim yurd yerimizin sabahı barədə düşüncələri özünə yer almışdı. Bu da doğmalığımızın bir bağı idi.

Qızı Rəna xanım və Əli müəllimin şərəfli yolunu davam etdirən nəvəsi Nail müəllim bizi yüksək səmimiyyətlə qəbul etdilər. Masanın üzərində Əli Əliyevə məxsus şəxsi albomlar, arxiv sənədləri vardı. Diktafon açmağa, suallar verməyə ehtiyac olmadı. Çünki Nail müəllim, sözün əsl mənasında, babasının yolunu davam etdirən bir ziyalı, söz sahibi kimi fikirləri ilə söhbətimizə körpü saldı. Onunla söhbətimiz zamanı, tam səmimiyyətlə deyirəm, düşünürdüm ki, Əli Əliyevlə üzbəüzəm. Tarixçi-alim haqqında söylənilənləri bu gün onun nəvəsi bizə danışırdı. Rəna xanım kövrələrək atası Əli müəllim haqqında deyir ki, atam çox ailəcanlı, sadə bir insan idi. Onun xidməti maşını olsa da, evdən iş yerinə qədər olan uzun yolu çox vaxt piyada gedərdi. Ciddi tələbkeşliklə dərslərimizi oxutdurar, zaman ayırıb hər birimizdən soruşardı. Atamın hər birimiz üzərində ciddi məsuliyyəti vardı. Bu gün sevinirəm ki, atamdan çox şey öyrəndik. İlk olaraq təmizliyi, məhəbbəti, düzgünlüyü, ən əsası Vətəni sevməyi aşılayırdı bizə. Mən böyüyəndən sonra bildim ki, atam vəzifədə işləyir. Ali Sovetin katibi idi. Həm də elmi fəaliyyətlə məşğul olurdu. Məni də çağırardı yanına və deyirdi ki, arzulayıram ki, sən fars-ərəb dili ilə maraqlanasan. Bunun arxasınca gedəsən. Mən məktəbi bitirəndə özüm də həvəsli idim. Çünki fars dili keçmişdim. Atam əski əlifbanı qoyurdu qarşıma deyirdi oxu... Və beləcə, atamın arzusu ilə Şərqşünaslıq ixtisasına qəbul olundum. Həm də yüksək nəticə ilə. Ali məktəbi uğurla bitirdim. Mən atamla hər zaman fəxr etmişəm. Bəzən düşünürəm ki, atam sağdı, arxamda dayanıb. Qardaşım oğlu Nail də bizdə qalırdı deyə o atamdan daha çox şeylər öyrənirdi. Onun yolunu özünə çıraq bilirdi. Bu gün də atamın yolunun davamçısıdır. Yenə deyirəm ki, çox qürur hissi keçirirəm ki, Əli Əliyevin qızıyam.

Söhbətimiz zamanı Rəna xanıma atasının xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəllimi olduğunu eşitdiyimizi deyib, onunla bağlı hər hansısa bir xatirəsi varsa, bizimlə bölüşməyini xahiş etdik. Rəna xanım Ulu Öndərin hakimiyyətinin birinci dövründə Moskvada yaşadığı ağır günlərdən söz açaraq bildirdi ki, Əli müəllim həmin vaxtlar burada çox narahatlıq keçirdi. Deyir ki, atasının gözəl bir kitab rəfi vardı. Orada Heydər Əliyevin Siyasi Büro üzvlüyündəki şəklini kitabların önünə qoymuşdu. Çünki şagirdinin keçdiyi siyasi yol müəlliminə fərəh dolu anlar bəxş edirdi. Bəzən onunla danışırmış kimi də baxır, həmin dövrün ağırlığını anlayaraq narahatlığını da gizlədə bilmirdi. Həmişə də deyərdi, ay Heydər, sən Azərbaycanın fəxrisən! Azərbaycanda tanınmış bir siyasi xadim varsa, o da sənsən. Mən səninlə fəxr edirəm. Həm də ona görə ki, sən mənim tələbəm olmusan.

Atam, ümumiyyətlə, evdə elə də söz danışan biri deyildi. Hətta vəzifədə işləyərkən onun əleyhinə gedən adamlar vardı. Heç vaxt evdə danışmazdı o barədə. Naxçıvan şəhərində yeni yaradılan Pedaqoji İnstitutun filialına atamın təyinatı veriləndə, katib çağırıb deyir: “Əli müəllim, biz sizi instituta göndərmək istəyirik”. Atam da bir az fikrə dalır. Tofiq Vəkilov var idi, bizə də qohumluğu çatırdı. O da katib işləmişdi. Ağır vəziyyətdə idi həmin vaxtlar. Atam deyir ki, bəs Tofiqin xətrinə mən vəzifəmdən gedərəm. Həm də mən müəlliməm, niyə getmirəm ki?! – gedərəm. Beləcə, indiki Naxçıvan Dövlət Universitetinin ovaxtkı Vladimir İliç Lenin adına APİ-nin Naxçıvan filialının direktoru kimi fəaliyyətə başlayıb.

Nail Əliyev də babasını mübariz bir şəxsiyyət, Vətənini sevən tarixçi, sözü kəsərli bir ziyalı kimi xatırlayır: “Babam yüksək vəzifə daşıyıcısı olmasına baxmayaraq, həmin dövr üçün vəzifəsini itirməyi belə gözünə alaraq ermənilərin xalqımıza qarşı yalanlarının ifşası üçün əlindən gələni edirdi. Babamın yazdığı bir çox mühüm əhəmiyyətə malik olan yazılar var ki, o dövrlər “Kommunist”, “Bakinskiy raboçi” kimi qəzetlər çapına yer ayırmırdı. Amma muxtar respublikada fəaliyyət göstərən “Şərq qapısı” qəzetində həmin yazılar dərc olunurdu. Onun yazdıqlarının hər biri, demək olar ki, “Şərq qapısı” qəzetində işıq üzü görüb. Babamın o qəzetdə elə yazıları gedib ki, həmin yazılara görə həmin mətbuat orqanına paytaxtdan irad tutulub”.

Müsahibimiz deyir ki, babası elə o dövrlərdə Cəmşid Naxçıvanskidən məqalə verir. Professor Tokarjevski deyir ki, “Şərq qapısı” qəzetindən gərək o yazını göndərərdilər, mən baxardım, sonra dərc olunardı. Babam həm də 1967-ci ildə Ali Sovetin Rəyasət Heyətinin katibi olaraq Naxçıvan xanlarının şəcərəsini araşdırıb nəşr etdirmişdi. Həmin dövrlərin canlı şahidi kimi çalışırdı ki, yazılarında tarixi hadisələri olduğu kimi əks etdirsin. Onu da deyim ki, babam sovet vaxtında vəzifədə çalışdığı üçün doktoranturanı müdafiə edə bilməzdi. O, çox çətinliklə İrəvan, Tiflis arxivlərindən araşdırmalar etmişdi. Əli müəllimin, xüsusilə də xanlıqlarla bağlı yazıları onlarda qıcıq doğururdu. Çünki çarlıq bu ərazilərdə quberniyalar, uyezdlər yaratmışdı. Bir sözlə, tarixi silməyə çalışırdılar. Əli Əliyev isə bunlara göz yuma bilmirdi. Yaxın adamları var idi, onların köməyindən istifadə edərək bir çox materialları İrəvan arxivindən Naxçıvana gətirmişdi. Tiflisə gedərək Ali Sovetdə yüksək vəzifədə çalışdığını demiş və bildirmişdi ki, biz Naxçıvanda yaşadığımızdan bu materialları işləmək imkanlarımız yoxdur. Həmin o materialları toplayaraq Naxçıvan arxivinə gətirir. Babam həm də mənbəşünas idi. Arxiv materialları işıq üzü görsün deyə “Şərq qapısı” qəzetində nəşr etdirməyə başlayır. Bunların hər biri tarixi sənəd idi. İstəmirdi, itib-batsın. Kimə də maraqlı idisə, hazır tarixi material kimi qəzetdən rahatlıqla oxuya bilirdi.

Nail müəllim deyir ki, babası Əli müəllimin Cəmşid Naxçıvanski, Araz -Türk Respublikası, Mərd Mübarizlər, Andranik Ozanyanın Naxçıvanda törətdiyi qırğınlar haqqında olan yazılarının hər biri davamlı olaraq “Şərq qapısı” qəzetində dərc edilib. “Naxçıvanda sovet hakimiyyətinin qurulması” rubrikası ilə gedən yazıların içərisində Abbasqulu Şadlınski haqqında geniş məlumatlar var. O da xatirimdədir ki, “Axırıncı aşırım” bədii filmi çəkiləndə Bilas Şadlınski bizə gəlmişdi. Fərman Kərimzadəyə də materialların çoxunu Əli Əliyev vermişdi.

Nail müəllim babası haqqında dediyi daha bir məqamı oxuculara çatdırmaq istəyirəm. O deyir ki, fevralın 27-də, martın 11-də və aprelin 16-da Andranikin regionun müsəlman əhalisinə qarşı törətdiyi terror və qətllər haqqında “Pravda” qəzetinə geniş məqalələr göndərib. Lakin qəzet məqalələri dərc etmədiyindən alim 1965-ci il mayın 8-də Andranikin əməlləri barədə Sov. İKP MK-nın birinci katibi Leonid İliç Brejnevə müraciət etməli olub.

Bununla bağlı Əli Əliyevin xatirələrində oxuyuruq: “1965-ci il yanvar ayında Ermənistan Elmlər Akademiyası bədnam Andranikin anadan olmasının 100 illiyini təntənə ilə qeyd edirdi. Akademik Nersesyan geniş məruzə ilə çıxış etmişdi. Onun “məruzə”si bütün qəzetlərdə dərc olunmuşdu. “Kommunist” (İrəvanda nəşr edilən) qəzetində o əliqanlı quduzun at belində şəkli verilmişdi. Xalqımızın qəddar düşməni olan, adi insaniyyətdən uzaq, Naxçıvanda körpələri şişə taxdıran bu antibəşər vəhşinin yubileyinin keçirilməsi ilə əlaqədar alimlərimizin, tarixçilərimizin, ictimaiyyətimizin susması məni, sözün əsl mənasında, dəli etmişdi. Azərbaycan Respublikasının yüksək vəzifəliləri tərəfindən də bu tarixi rəzalətə reaksiya verən tapılmadı. Əqidəcə mənə yaxın olan bir neçə nəfərin köməyi ilə Andranikin törətdiyi qeyri-insani cinayətlər, xəyanətlər barədə illərlə topladığım tarixi faktları rəsmi məktubla Azərbaycan KP MK-ya göndərdim. Sən demə, məktubum oradan da Azərbaycan SSR Ali Sovetinə verilibmiş. Məni ora çağırdılar, getdim. Rəyasət Heyətinin katibi Zərifə Şükürova qeyzlə soruşdu: “Bu nədir yazmısınız?” Cavabımda bildirdim ki, sizə yazmamışam.

Məsələ aydın idi, bizimkilər qorxaqlığa yol vermişdilər. Oradan çıxandan sonra götür-qoy edib məktublarımın, giley-güzarımın istiqamətini Moskvaya yönəltdim...”

Əli Əliyevin qaldırdığı məsələləri yoxlamaq üçün onun məktubları mayın 22-də Sov. İKP MK yanında Marksizm-Leninizm İnstitutuna, Azərbaycan KP MK və Ermənistan KP MK-ya göndərilir. Vəli Axundovun tapşırığı ilə Azərbaycan KP MK-nın Marksizm-Leninizm İnstitutu təcili olaraq Azərbaycan arxivlərində, Zaqafqaziya mətbuatında Andranikin 1917-1920-ci illərdəki fəaliyyəti ilə bağlı sənədləri toplayıb institut direktorunun müavini Cəmil Quliyevin qoşma məktubu ilə Moskvaya göndərilir. 84 səhifədən ibarət olan bu sənədlər Andranikin Naxçıvan, Zəngəzur, Qarabağ və İrəvanda törətdiyi qanlı əməllərinə tarixi ittihamı idi.

Ev sahibləri Əli Əliyevin bu günümüz, sabahımız üçün bir ensiklopediya dəyərində olan, 1994-cü ildə “Yazıçı” ədəbi nəşrlər evi tərəfindən işıq üzü görmüş “Biz əzablı ömür yaşadıq” və 2004-cü ildə “Elm və həyat” nəşriyyatı tərəfindən nəşr olunmuş “Əlincə yaddaşı” kitablarını bizə hədiyyə etdilər. Naxçıvan tarixinin keşməkeşli dövrünü, nəticə etibarilə, Azərbaycan tarixinin gizli qalmış məqamlarını, ermənilərin və rusların xalqımıza qarşı hazırlayaraq həyata keçirmək istədikləri və keçirdikləri bəzi düşmənçilik əməllərini, bu əməllərə görə azərbaycanlıların düçar olduqları ağır və əzablı hadisələri özündə əks etdirən həmin kitablar, düşünürəm ki, bu gün hər birimizin stolüstü kitabı olmalıdır. Ən azından düşmənlərimizi yaxından tanımaq, təhrif olunmuş tariximizin qaranlıq səhifələrini gələcək nəsillərin də öyrənməsi üçün ən qiymətli mənbələrdir. Təbii ki, kiçik bir qəzet yazısında bunların cüzi bir hissəsi barədə danışmaq belə imkan xaricindədir. Çalışacağıq ki, bu məsələlərə yenidən qayıdaq, tariximizin o səhifələrini gənc nəslə də çatdıraq.

**Aidə İBRAHİMOVA**

# Bəlkə, bu yerlərə bir də gəlmədim





Ədəbiyyat, poeziya, şeir və şeiriyyət... Bu sözlərin altında elə bir tilsim yatır ki, bu tilsim gah Məmməd İbrahimov kimi cavan bir oğlanı Məmməd Araztək şair edir, gah da eşqdən sulanmış gözlər ilə milyon fikir içində yollara baxdırır... Qəribədir, görəsən həmin baxışların altında nələr yatırdı. Naxçıvandan Bakıya, Vətən sevgisindən yar sevgisinə uzanan dərin və mənalı baxışlar...

Şahbuz rayonunun Nursu kəndində doğulan balaca Məmməd, bəlkə, özü də bilmədən həyatın mancanağına qoyularaq poeziya atəşinə atılmışdı. Şairləri şair edən qəlbindəki sevgidir deyirlər... Ya xoşbəxtlikdən şair olursan, ya da xatirələrin buraxdığı acı nisgildən... Bir yanda Araz təxəllüsü, bir yanda qəlbinin bir tərəfində qalan həmin o xatirələr...

Onun poeziyasının dərinliklərində gah Vətən "oğullarının gözünün atəşi gözəl əridir", gah da taleyin oyunundakı cütlənmiş zərlər hey atılsa da, qoşa düşmür... Hətta şair özü də şeirlərində sevginin atəşindən üsyan edərək bütün sirlərini bilən anasına belə məhəbbət sirrini deyə bilməyib, o gündən bəri qəlbini heç kimə vermədiyini deyir...

Şeirlərinə musiqilər bəstələnən şair sanki öz müəllifi olduğu sözləri dinlədikcə Məmməd Araz olduğunu unudaraq yenidən Nursu kəndinin balaca Məmmədinə qayıdır...

Nə bilmək olar... Bəlkə, hələ də Məmməd Arazın şeirlərindəki bəzi misralar Nursu kəndinin yollarında ilişib qalıb... Və nəhayət, Məmməd Arazın həyatının Bakı çağı başlayır... Coğrafiya fakültəsini bitirən şair, eyni zamanda sözün xəritəsinin incəliklərinə də bələd olmağı bacarırdı...

50-ci illər... Məmməd Arazın Azərbaycan ədəbiyyatında parlayan ulduzlar arasında sayrışmağa başladığı həmin çağ... Jurnallarda dərc olunan şeirlər, mətbəələrdə çap olunan kitablar Məmməd Araz poeziyasını hər keçən gün irəli aparmağı bacarırdı.

Azərbaycan ədəbiyyatının danılmaz simalarını yetişdirən diyarlardan biri də məhz elə Naxçıvan yurdudur... Azərbaycan ədəbiyyatı deyilərkən Şəki-Şamaxı, Qarabağ-Zəngəzur eli kimi ünvanlarla yanaşı, Naxçıvan torpağının adının çəkilməsi də məhz elə neçə-neçə Cavidlərin, Mirzə Cəlillərin, Sidqilərin və ən nəhayətində müasir-romantik poeziya aləminin qələm sahibləri olan İslam Səfərlilərin və Məmməd Arazların bu torpaqda yetişməsidir... Gedən şairlərdən bizə yadigar qalanlar təkcə buraxdıqları söz mirasıdır:

*Bəlkə, bu yerlərə bir də gəlmədim,*
*Duman, salamat qal, dağ, salamat qal.*
*Dalımca su səpir yoxsa buludlar? –*
*Leysan, salamat qal, yağ, salamat qal!*

*Qıy vuran qartallar yox oldu çəndə,*
*Nərgizlər saraldı şehli çəməndə.*
*Ey qaragöz pəri, dalımca sən də*
*Boylan, salamat qal, bax, salamat qal!*









## Qoca şair Məmməd Araz

Məmməd Araz könlümüzdə yanan ocaq,
O sönməz heç, qəlbimizdə yaşar ancaq.
Bu ürəkdən o ürəyə edər pərvaz,
Qoca şair Məmməd Araz...
Naxçıvanda milyon dahi,
Hüseyn Cavid, Ordubadi,
Bir də böyük şeiriyyətdə
Böyük şair Məmməd Araz.
"Qələmimi axtaranda tapammıram,"
Canan burdan qəlbimizi yarə edib,
Qələm burdan eyləyir naz.
De, neyləyim, dahi şair Məmməd Araz?
Ey dahilər – ey Bəxtiyar, ey Şəhriyar,
Mən aşığam,
Amma neynim, sizdədir saz,
Dahi şair Məmməd Araz...
Səslər verir köhnə sazın hər bir teli,
Qoca şair salamlayır qoca eli.
"Azərbaycan" sözündə də bir başqadır səndə avaz,
Dahi şair Məmməd Araz...
"Dünya sənin, dünya mənim,"
Gah heç kimin deyən şair,
Nə mülküm var, nə cananım.
Bunlar yoxsa, bu dünyada nə azarım?
Aşiq olub bu dünyadan getsə qəlbim
İnan qorxmaz
Dahi şair Məmməd Araz...
Şeiriyyətdə izim vardı,
Süründüyüm dizim vardı,
Guruldayıb çaxsam da mən,
Buludlar da mənə dardı.
İnan bu cür guruldayıb çaxan şair,
Desən bircə damla yağmaz,
Dahi şair Məmməd Araz...
Vətən şahdır...
Oğulları yazır ondan.
Cavan şair, sən də yazıb-yarat bir az,
Şeiriyyətdə olmasan şah, eybi yoxdur.
Olmasan şah, ruhdan düşmə, yenə də yaz,
Bəlkə oldun,
Şahın oğlu – Məmməd Araz...

**Rafiq TƏHMƏZ**







# Bu torpağın sevdalı ruhu əsla solmayacaq

***NAXÇIVAN... Bu adı hər birimiz eşidəndə könlümüzdə bir səs yüksəlir, ürəyimizdə bir qəribə hiss yaranır. Bir zamanlar uzaq bir əyalət, indi isə Azərbaycanın qəlbindəki müstəqillik simvolu olan bu diyar əsrlərboyu yaşadığı tarixlə bizi özünə heyran edir. Muxtariyyətimizin 100 illiyi münasibətilə keçirdiyimiz qürur hər an bu gözəl torpağın əzəmətini daha dərindən dərk etməyimizə gətirib çıxarır. Və bu yalnız bir yubiley deyil; bu, zamanın əbədi axarına vurulmuş bir möhürdür.***

Bu torpağın hər bir daşında, hər bir ağacında, hər bir çiçəyində bir tarix yazılıb. Naxçıvan bu zamanın qucağında həyat tapmış, nəsildən-nəslə ötürülən bir irsin etibarlı daşıyıcısıdır. Bu diyarın hələ əvvəllərdən yaşatdığı qədim mədəniyyətlərdən, onun təbiətindəki incə harmoniyadan danışmaq insana qürur yaşadır.

Düşünürsən, Naxçıvanın səhərləri necə başlanır? Hər səhər Günəşin ilk şüaları bu torpağa düşərkən onun göylərə boyverən dağları, bir zamanlar azadlıq, hüzur axtaran səyahətçilərin baxışları ilə doludaşırdı. Düşünürsən, bu torpaqda doğulmuş hər insan öz kökünü bilmədən yaşasa belə bu yurdun ruhunu duyur. Həmin o daşları, həsrəti, sükunəti və bir o qədər də nəhayətsiz bir sevgini duyur.

Yüz il əvvəl, bir zamanlar kiçik, amma həm də böyük bir niyyətlə başlanmış bu tarix minlərlə insanın fədakarlığı ilə bu günə gəlib çatıb. Naxçıvanın çiçəklənməsini, inkişafını nəinki bu torpağı, həm də bütün Azərbaycanı necə təsirləndirəcəyini təxmin edirdilər. Çünki hər addımında bir sevda var, hər daşında bir yurd sevgisi, hər nəfəsində bir həyat var Naxçıvanın.

Günümüzün Naxçıvanı da eyni hekayəni yaşamağa davam edir. Onun mədəniyyəti, həyat tərzi, insanları öz köklərindən güc alaraq bu günlərə gəlib çıxıb. Naxçıvanın hər kəndi, hər qəsəbəsi, hər bir küçəsi bir nəğmə kimi səslənir. Bütün bu yazılar, bütün bu abidələr hər an bizim üzərimizdə parlayır və bir həqiqəti xatırladır: bu torpaq heç zaman tək olmayıb. O, hər zaman birliyi, birlikdə mövcud olan bir ürəyi simvollaşdırıb.

Bəli, Naxçıvan, muxtar respublika olaraq sən yüz yaşında bir gəncsən. Gözlərində gəncliyin nəşəsi, addımlarında isə tarix və mədəniyyətin zənginliyi var. Sən bir diyardan çox xalqın qəlbindəki ən qiymətli xəzinəsən. Yüz il sonra belə bu torpağın sevdalı ruhu əsla solmayacaq. Naxçıvan, sənin tarixindən, sənin insanlarından ilham alaraq biz daha da yüksələcəyik. Və sənə olan bu sevgi, heç zaman sona çatmayacaq.

Naxçıvan, sən bizim ürəyimizdə hər zaman yaşayırsan və bu yubiley hər birimizin içindəki Naxçıvan sevgisinin bir simvoludur. Yüz il səninlə!

**Araz QULİYEV**

## Dövlət Proqramı çərçivəsində idman qurğuları quraşdırılır



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində muxtar respublikanın Gənclər və İdman Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər davam etməkdədir. Dövlət Proqramına uyğun olaraq bədən tərbiyəsi və idmanın gündəlik həyat tərzinə çevrilməsi, əhalinin asudə vaxtının səmərəli təşkili, böyüməkdə olan gənc nəsil üçün idman alətlərinin əlçatanlığının təmin edilməsi məqsədilə Naxçıvan şəhərinin bir sıra ərazilərində (8 yerdə) açıq hava idman qurğuları əhalinin istifadəsinə veriləcəkdir.

Məlumat üçün bildirək ki, bu il ərzində həyata keçirilən hüquqi və təşkilati proseslərin ardınca dövlət satın alması əsasında 12 dəst müxtəlif funksiyalı açıq hava tipli idman aləti alınıb. Noyabr ayının əvvəlindən etibarən artıq seçilmiş ərazilərdə inşaat işləri başladılıb və hazırda davam etməkdədir. Hər birinin sahəsi 76 kvadratmetr olan idman meydançalarının əksəriyyətində betonlama işləri tamamlanıb, alətlər səthə bərkidilib. Təhlükəsizlik meyarı nəzərə alınmaqla səthin üzəri elastik materialla örtüləcək. Ərazilərə skamyalar və tullantı qutuları yerləşdiriləcək.

Qeyd edək ki, idman qurğularının dekabrın sonlarına kimi əhalinin istifadəsinə verilməsi nəzərdə tutulub. Əlavə edək ki, müxtəlif yaş qruplarına uyğun dizayn edilən alətlər fiziki hazırlığı artırmaq, əzələləri möhkəmləndirmək və müxtəlif məşq proqramlarının icrası üçün əlverişlidir.

## "Buta Naxçıvan" ansamblı müsabiqədə uğur qazanıb



10 noyabr tarixdən başlayaraq Bakı şəhərində keçirilən Azərbaycan Respublikasının Əməkdar artisti, görkəmli tarzən Əhsən Dadaşovun 100 illik yubileyi ilə bağlı keçirilən "Əhsən" xalq çalğı alətləri ansambllarının televiziya müsabiqəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi sistemində fəaliyyət göstərən yaradıcı kollektivlərin üzvlərindən ibarət "Buta Naxçıvan" ansamblı da iştirak edib.

Qeyd edək ki, "Buta Naxçıvan" ansamblı müsabiqədə qrup mərhələsi üzrə 3-cü yerin qalibi olub.

### İtmişdir

Babək rayonu, Badaşqan kənd sakini Cəfərov Arif Məmməd oğlunun adına olan A-008820 inventar nömrəli torpaq sahəsinin planölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Allahverdiyev Əhəd İsmayıl oğlunun adına olan MH-0062159 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Əbrəqunus kəndində Səfərov Elmar Surxay oğlunun adına olan 208$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Yüzbaşıyev Rza Behbud oğluna məxsus 11$^{A}$ nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Təzəkənddə Məmmədov Hümurut Əkbər oğlunun adına olan JN-098$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Babək şəhər sakini Zeynalov Heydər Hadı oğlunun adına olan 746$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

"Enna" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 185-FX-626 dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Culfa şəhəri, Məhərrəm Əsgəroğlu küçəsi, ev 23, mənzil 3 ünvanında Behbudov Fərid Araz oğluna məxsus mənzilin 2064 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq kəndində yaşamış Camalova Gülüsüm Zeynal qızının adına olan JN-615$^{A}$ nömrəli, 10211018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Hacıvar kəndində Allahverdiyev Nurəli Xanəli oğlunun adına olan JN-020$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 353

Nömrəyə məsul: Əli Cabbarov, Ceyhun Məmmədov, Aygün Rüstəmova
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.